

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



3

№ 240 (6923)

29 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Qalibiyyəti imzası ilə yazan Lider!



8

# Qərbin "Ukrayna bataqlığı"

*Avropalılar Kiyevə kömək etməkdən imtina etmirlər, lakin pulları daha dəqiq hesablamağa başlayırlar*



4

## "ASAN" həyatımızdan 11 il ötür...



5

## "Əli Kərimlini satın alanlar kimlərdirsə, danışdıran da onlardır"



9

## Qarabağda biomüxtəliflik: Necə bərpa edilməli?



15

## Yeni İl süfrəsini necə dizayn edək?



7

## İcbari Tibbi Sığorta: müayinə gələn ilə qaldı



13

# Şəhid ailələri və qazilərə sosial dəstək



*Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində şəhidlik zirvəsinə ucalanların ailə üzvlərinə, bu haqq savaşımızda şanlı Zəfər qazanan qüdrətli Azərbaycan Ordusunun hərbçilərinə, qazilərinə daim xüsusi diqqət və qayğı göstərir. Dövlətimiz həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərmək prinsipini qoruyub saxlayır.*

Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Dövlət başçısı çıxışlarının birində qeyd etdiyi kimi, "Dövlət öz üzərinə nə düşürsə etməlidir və edəcək". Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Prezident İlham Əliyev çıxışlarının birində vurğladığı kimi, "Hər bir şəhidin həyatı təkrarolunmazdır, hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir. Müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir".

## ŞƏHİD AİLƏLƏRİ VƏ MÜHARİBƏ ƏLİLLƏRİ 14600 MƏNZİL VƏ FƏRDİ EVLƏ TƏMİN OLUNUB

Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində ardıcıl işlər görülür. Ötən dövr ərzində şəhid ailələri və müharibə əlilləri üçün icra olunan ən geniş və mühüm fəaliyyətlərdən olan mənzillə təminat proqramı 5 dəfə genişləndirilib. Şəhid ailələri və müharibə əlillərinə mənzillə təminat prosesi davamlı olaraq həyata keçirilir və 2025-ci ilə qədər yekunlaşdırılması üçün dövlət tərəfindən vacib addımlar atılır. Bu yaxınlarda Hövsan Yaşayış Kompleksində, Gəncə şəhərində, eləcə də Ağstafa, Beyləqan, Cəlilabad, Gədəbəy, İmişli, Kürdəmir, Qəbələ, Qusar, Masallı, Sabirabad, Salyan, Yevlax, Zaqatala və Zərdab rayonlarında ümumilikdə 200 mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim edilib.

İmtiyazlı şəxslərin mənzillə təminatı tədbirlərinə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılıb və ötən dövrdə uğurla davam etdirilibdir. Bu il artıq 1300, postmüharibə dövründə 5800, ümumilikdə



ötən dövrdə 14600 mənzil və fərdi evlə təmin olunublar.

## MÜHARİBƏ İLƏ ƏLAQƏDAR ƏLİLLİYİ OLAN ŞƏXSLƏRƏ ÖTƏN DÖVRDƏ 7600 AVTOMOBİL VERİLİB

Əlbəttə ki, dövlət başçısının bu kateqoriyadan olan insanların sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi məmnunluq yaradır. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Ölkəmizdə şəhidlərə və onların ailələrinə, əlillərə olan münasibət dövlətimizin məqsədyönlü, düşünülmüş və ardıcıl siyasətidir. Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsipləri dayandığını bir daha təsdiqləyir.Müharibə əlillərini əhatə edən mühüm proqramlardan biri də avtomobillə təminatdır ki, bu proqram çərçivəsində bu günlərdə Vətən müharibəsi ilə əlaqədar əlilliyi olan şəxslərə daha 50 minik avtomobili verilib. Ölkə Prezidentinin Sərəncamı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı tədbirləri çərçivəsində 44 günlük Vətən müharibəsində yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərimiz avtomobillə təmin edilirlər. Postmüharibə dövründə 424, ümumilikdə ötən dövrdə 7600 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib.

Təbii ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir.

*Nəzakət ƏLƏDDİNQIZI*





# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib



**_Dekabrın 28-də Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin iclası keçirilib. Partiyanın şəhər və rayon təşkilatlarının sədrləri iclasda onlayn formatda iştirak ediblər._**



YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi barədə məlumat verib. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib. YAP Mərkəzi Aparatının rəhbəri prezident seçkiləri ilə bağlı partiyanın İdarə Heyətinin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq qarşıda duran vəzifələrə toxunaraq gündəlikdə duran məsələləri elan edib. İclasda ilk olaraq seçkilərlə əlaqədar bir sıra məsələlərə baxılıb.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Kamal Cəfərov Mərkəzi Seçki Komissiyasında məşvərətçi səs hüquqlu üzv, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Rauf Əliyev isə MSK-nın iclaslarını müşahidə edəcək şəxs təyin edilib. Bundan əlavə, səsvermə günündək dairə seçki komissiyalarında, səsvermə günü Azərbaycan Respublikasının bütün ərazisində müşahidə aparacaq şəxslərin, eləcə də səsvermə günü məntəqə seçki komissiyalarında müşahidə aparacaq şəxslərin və dairə və məntəqə seçki komissiyaları üzrə məşvərətçi səs hüquqlu üzvlərin təyin edilməsi barədə qərar qəbul olunub.

Sonra iclasda “Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının Tədbirlər Planının icrasının yekunlarına dair hesabat müzakirəyə çıxarılıb. Bildirilib ki, “Heydər Əliyev İli” ilə əlaqədar Tədbirlər Planı olduqca zəngin, rəngarəng və çoxşaxəli olub, nəzərdə tutulan bütün tədbirlərin icrası təmin edilib. İdarə Heyətinin üzvləri müzakirələrdən sonra hesabatı təsdiqləyiblər.

Daha sonra iclasda YAP Mərkəzi Aparatının və yerli təşkilatlarının 2024-cü il üçün gəlir-xərc smetaları təsdiq olunub. Eyni zamanda, partiyanın Qobustan, Lerik, Yardımlı, Xızı, Daşkəsən, Xocalı, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Xocavənd təşkilatlarının aparatlarına 2024-cü il üçün təsdiq edilmiş gəlir-xərc smetaları üzrə yaranmış mənfi fərqin qarşılanması məqsədilə dotasiyaların ayrılması və Yeni Azərbaycan Partiyasının cari fəaliyyəti ilə bağlı digər məsələlərə də baxılıb. Müzakirələr zamanı YAP Sədrinin müavini Əli Əhmədov, YAP İdarə Heyətinin üzvləri Bahar Muradova, Elmar Qasımov, Elşad Mirbəşiroğlu və Mübariz Qurbanlı məsələlərə münasibət bildirib, müvafiq qərarlar qəbul olunub. İclasa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın İdarə Heyətinin üzvlərini qarşıdan gələn 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar arzulayıb.

# Heydər Əliyev Fondu uşaqlar üçün bayram şənliyi təşkil edib

2023-cü ilin bitməsinə sayılı günlər qalmış Heydər Əliyev Fondu Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün şənlik keçirib. “Gülüstan” sarayında təşkil edilən bayram şənliyinə müxtəlif uşaq evlərində və internat məktəblərində tərbiyə alan, sağlamlıq imkanları məhdud və xüsusi qayğıya ehtiyacı olan uşaqlar, eləcə də şəhid övladları dəvət alıblar.





Uşaqlar şənliyin keçirildiyi saraya onlar üçün ayrılmış avtobuslarla gəliblər.

Bayram ovqatı ilə bəzədilən şənlik məkanında balacaları nağıl qəhrəmanları qarşılayıblar. “Face Art” vasitəsilə uşaqlar özləri də istənilən möcüzə qəhrəmanını canlandırmaq imkanı qazanıb. Bayram şənliyi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uşaqlara qayğısından, müxtəlif illərdə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramlarında uşaqlarla bir yerdə olmasından bəhs edən videoçarxın nümayişi ilə başlayıb. Uşaqlar üçün təqdim edilən Yeni il səhnəciyi dostluq, xeyirxahlıq, qarşılıqlı kömək və xeyrin şərə qalib gəlməsi üzərində qurulub. Tamaşada müxtəlif nağıl qəhrəmanları ilə yanaşı, qarşıdan gələn 2024-cü ilin rəmzi olan Əjdaha obrazı da canlandırılıb. Yeni il ovqatlı sarayda rəqslərə qoşulan, mahnılar ifa edən uşaqlar bayramı tanınmış sənətçilərin, sevimli nağıl və cizgi filmləri qəhrəmanlarının əhatəsində qeyd ediblər.

Musiqili-əyləncəli proqram müxtəlif uşaq kollektivlərinin və Azərbaycan incəsənət ustalarının iştirakı ilə təqdim olunub. Xüsusi qayğıya ehtiyacı olan uşaqların qarşısında Xalq artistləri Aygün Kazımova, Zülfiyyə Xanbabayeva, Əməkdar artist Manana və digər incəsənət xadimləri, o cümlədən Aysel Teymurzadə, Elnur Məmmədov, Günay İbrahimli, Murad Arif, Zamiq Hüseynov çıxış ediblər.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum, sağlamlıq imkanları məhdud uşaqların, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin bizə əmanəti olan övladlarının problemlərinin həllinə xüsusi diqqətlə yanaşır, bu uşaqların hər zaman qayğı ilə əhatə olunmasına çalışır. Fondun ənənəvi Yeni il şənlikləri də məhz həmin kateqoriyadan olan uşaqları sevindirmək məqsədilə təşkil edilir. İki saata yaxın davam edən əyləncəli proqramın sonunda uşaqlara Heydər Əliyev Fondu tərəfindən bayram hədiyyələri verilib.

# Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər



“Heydər Əliyev İli” ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il dekabrın 28-də YAP Nəsimi rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Yasamal rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub. Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunub, abidənin önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar. Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda xatirə fotosu çəkdirilib.

# Qərbin "Ukrayna bataqlığı"

***Ukraynada hələ də davam edən amansız müharibənin artıq 673-cü günüdür. Qərbin maraqları, istəyi və arzusu ilə iki qardaş arasında başlanan savaşın qalibinin olmadığını hər kəs bilir, amma həri iki tərəfin məğlubiyyəti heç kimdə şübhə doğurmur. Qərb bu müharibədə tərəfini saxladığı, milyardlarla dollarlıq silah və maliyyə yardımı etdiyi Ukraynanın da qələbəsini istəmir. Tərəfləri yormaq, tükətmək, yarımfabrikat halına gətirmək və hazır yem kimi parçalayıb yemək istəyir. Bu iştahda olan Qərb dövlətləri arasında Ukraynaya yardım edənlərlə bərabər, əksini edən və düşünənlər də var. Amma onların bu kampaniyanı durduracaq gücləri yoxdur.***



## *Avropalılar Kiyevə kömək etməkdən imtina etmirlər, lakin pulları daha dəqiq hesablamağa başlayırlar*

2024-cü ildə Qərb Ukraynaya maliyyə dəstəyini davam etdirəcək, lakin onun həcmləri azala bilər. Aİ Macarıstanın mövqeyinə görə ilişib qalan 50 milyard avro paketi əvəzinə Kiyevə kömək etmək üçün alternativ plan hazırlayır. "B planına" görə, Ukrayna 20 milyard avro alacaq və qrantsız qalacaq. Bu arada, ABŞ-dan maliyyələşdirmənin təsdiqi ilə bağlı problemlər və Aİ-də gecikmələr fonunda Ukraynaya ikinci ən böyük donor olan Almaniya Kiyevə dəstəyini azaltmayacağına əmin edir. Lakin Berlin potensial çatışmazlıqları kompensasiya edərək yardımı artırmağa hazır deyil.

2023-cü ilin sonuna qədər Ukraynanın üzləşdiyi əsas problemlərdən biri hətta uğursuz əks-hücum yox, müttəfiqlərindən gələcək yardımın qeyri-müəyyənliyi idi. Birləşmiş Ştatlar bu məsələni 2024-cü ilə buraxaraq 61 milyard dollarlıq əlavə maliyyə məsələsində razılaşa bilməyib, Macarıstanın barışmazlığı səbəbindən Avropa İttifaqı 50 milyard avro vəsaitin ayrılmasını təsdiq edə bilməyib. Eyni zamanda, əgər amerikalı qanunvericilər partiyalararası kompromislərdə uğursuzluğa düçar olub, sakitcə Milad və Yeni ili qeyd etmək üçün uzaqlaşıblarsa, o zaman Aİ həll yolu axtarmağa davam edib.

Bu yaxınlarda bildirildi ki, Brüssel hətta müvəqqəti olaraq Budapeşti səsvermə hüququndan məhrum etmək, bununla da Ukraynaya vəd edilən 50 milyard avronu təmin etmək yolundakı maneələri aradan qaldırmaq barədə düşünür. Lakin görünür, problemlərin belə radikal həlli üsulu bunu etməyən avropalı rəsmilərin qorxusuna səbəb olub. Həqiqətən də, Aİ-nin mövcud üzvünün hüquqlarının məhdudlaşdırılması halında, assosiasiyanın əvvəlki formada saxlanılması ehtimalı gözə dəymirdi. Bununla belə, "The Financial Times"ın məlumatlı mənbələrə istinadən verdiyi məlumata görə, Brüsseldə Macarıstandan yan keçərək Kiyevin maliyyələşdirilməsi üçün alternativ plan ortaya çıxıb.

Bu sxemə görə, Avropa Komissiyası (AK) üzv ölkələrin kredit zəmanəti ilə xarici bazarlardan 20 milyard avroya qədər borc götürə və onları Kiyevə göndərə bilər. Ukraynanın 4 illik 50 milyard avroluq maliyyələşdirmə planından fərqli olaraq, belə bir ssenari Aİ-nin bütün üzvlərinin razılığını tələb etməyəcək. Zəmanətlər ən yüksək kredit reytinqinə malik dövlətlər tərəfindən verilə bilər. Düzdür, bu variantın mənfi tərəfi də var: bəzi ölkələrdə (məsələn, Almaniya və Hollandiyada) belə bir qərar parlamentin təsdiqini tələb edəcək. Hollandiyadakı son seçkilərdə Ukraynaya ayrılan maliyyənin azaldılmasını müdafiə edən millətçilərin qələbəsini nəzərə alsaq, AK ilə razılığa gəlmək çətin məsələ olacaq.

Ukraynanın özü üçün də mənfi cəhətlər var. Əgər 50 milyard avro ilə hekayədə uzunmüddətli kreditlərin və qrantların ayrılmasından danışırdıqsa, 20 milyard avro yalnız kreditlərdir. Əgər bu plan uğursuz olarsa, Brüssel ekstremal varianta əl ata bilər Yeri gəlmişkən, Ukrayna 2023-cü ildə Aİ-dən 18 milyard avro alıb. Baxmayaraq ki, sxemin uzun müddət sınaqdan keçirildiyini nəzərə alsaq, təbii ki, bunu "alternativ plan" adlandırmaq çətindir. Bundan əlavə, 50 milyard avroluq mexanizm təsadüfən yaranmayıb: Brüssel Ukraynanı bir müddət saxlamağa necə kömək etməyi yox, əhəmiyyətli və uzunmüddətli dəstəkləməyi axtarırdı.

NATO baş katibinin həyəcanı

Ukraynanın İqtisadiyyat naziri Yuliya Sviridenkonun dekabrın 27-də dərc olunan "The Financial Times" qəzetinə müsahibəsində dediyi kimi, Qərbin köməyi olmadan Kiyev milyonlarla vətəndaşa pensiyaları, habelə 500 min məmurun və 1,4 milyon insanın maaşını vaxtında ödəyə bilməyəcək. Onun sözlərinə görə, ölkə təcili olaraq gələn il üçün ən azı 37 milyard dollar xarici dəstək almalıdır, xüsusən də Ukrayna artıq kəsirlə üzləşdiyi üçün. Bəzi Qərb nümayəndələri hesab edirlər ki, Kiyev "daxili borclanma və Milli Bankdan monetar maliyyələşdirmə hesabına bir neçə ay tab gətirə bilər", yəni tərəfdaşlar fikir ayrılıqlarını həll edərkən, mahiyyət etibarilə, müvəqqəti olaraq mətbəəni işə sala bilər. Bununla belə, xanım Sviridenko izah edib ki, bu cür addımlar yalnız inflyasiyaya səbəb olacaq və ölkənin maliyyə sabitliyinə xələl gətirə bilər. Bu da öz növbəsində onu xarici dəstəkdən daha da asılı vəziyyətə salacaq.

Bu və ya digər şəkildə Avropa Birliyi Ukraynanı yardımsız qoymayacağına dair açıq siqnal göndərir, lakin bu yardımın azalmayacağına söz verə bilməz. Eyni zamanda, potensial itirilmiş xərcləri kompensasiya etmək istəyənlər də yoxdur. Məsələn, Ukraynanı dəstəkləmək üçün müvəqqəti olaraq daha çox sərmayə yatıra biləcək ölkələrdən biri də Almaniyadır. Onun nümayəndələri artıq bəyan ediblər ki, digərləri maliyyələşdirməni dayandırsalar belə, onlar Kiyevi tərk etməyəcəklər. Bununla belə, Almaniyanın maliyyə naziri Kristian Lindner müsahibəsində dediyi kimi, Berlin başqalarının pulunu ödəmək niyyətində deyil.

"Rusiya sürət qazanarkən və ABŞ Konqresi təcili ehtiyac duyulan çox milyardlıq yardımı gecikdirərkən" "Almaniyanın daha çox iş görməsinə ehtiyac yoxdur" sualına nazir cavab verdi ki, Almaniya artıq kifayət qədər işlər görür. "Almaniya Ukraynanın tərəfindədir. Axı orada Avropa sülh və azadlıq nizamı müdafiə olunur. Biz Almaniyada bir çox insana silah sistemləri, maliyyə yardımı və müdafiə təmin edirik. Biz artıq dünyada ikinci ən böyük sponsoruyuq. Almaniya Avropadan gələn bütün yardımların yarısını maliyyələşdirir. İndi daha çox investisiya üçün heç bir ilkin şərt yoxdur. Bu yükü daha yaxşı bölüşmək üçün çalışmalıyıq. Başqalarının daha az verməsi ola bilməz, çünki Almaniya daha çox verir", cənab Lindner bildirib. Onun sözləri olduqca məntiqli, qəribə səslənsə də, onlarda ABŞ-ın keçmiş prezidentinin və Ağ Evin rəhbəri vəzifəsinə Respublikaçılar Partiyasından namizədlərdən biri Donald Trampın çıxışlarından tanış olan qeydləri görmək olardı. Cənab Trampın Ukrayna böhranı ilə bağlı ritorikasının əks tərəflərindən biri Avropa müttəfiqləri Kiyev üçün maliyyəni Amerika səviyyəsinə qaldırana qədər ABŞ-ın digərlərindən çox pul ödəməməsi ideyası olub və belə də qalır. Sonda ABŞ-ın keçmiş lideri hesab edir ki, döyüşlər Şimali Amerikada deyil, Avropadadır.

### Jens Stoltenberg nəyin səhv olduğunu hiss etdi?

NATO-nun baş katibi Yens Stoltenberq ilk dəfə Rusiya-Ukrayna münaqişəsindəki vəziyyəti "kritik" adlandırıb və "pis xəbərlərə hazırlaşmalıyıq" deyə xəbərdarlıq edib. O hesab edir ki, bu vəziyyətin səbəbi ilk növbədə Kiyevə kifayət qədər hərbi yardım göstərilməməsidir və müttəfiqləri təcili olaraq təchizatı artırmağa çağırır. Maraqlıdır ki, bir neçə gün əvvəl - NATO xarici işlər nazirlərinin görüşü zamanı cənab Stoltenberq cəbhədəki vəziyyəti "çətin" adlandırsa da, Ukraynaya gələcək yardımla bağlı ehtiyatlı nikbinliyini ifadə edib. Noyabrın 28-29-da NATO xarici işlər nazirlərinin görüşündə Alyansın baş katibi Yens Stoltenberq cəbhədəki "çətin vəziyyətdən" danışdı və bunu Kiyevə kifayət qədər hərbi yardım göstərilməməsi ilə əlaqələndirdi. Lakin bundan sonra, bütün əvvəlki bəyanatlarında olduğu kimi, Stoltenberq hərbi əməliyyatların sonrakı gedişi ilə bağlı ehtiyatlı nikbinliyini ifadə etdi. Lakin onun son çıxışında ilk dəfə olaraq həyəcanlı qeydlər səslənib.

Alyansın baş katibi Almaniyanın ARD telekanalına müsahibəsində Ukraynanın "kritik vəziyyətdə" olduğunu etiraf edib. Cəbhədəki bu vəziyyət əsasən müttəfiqlərin Ukrayna Silahlı Qüvvələrini lazımi miqdarda sursatla təmin edə bilməməsi ilə əlaqədar yaranıb, deyə o izah edib. Yens Stoltenberq bununla da kifayətlənməyib: "Pis xəbərlərə hazırlaşmalıyıq. Münaqişələr mərhələlərlə inkişaf edir. Amma biz Ukraynanı həm pis, həm də yaxşı gündə dəstəkləməliyik".

Eyni zamanda, NATO-nun baş katibi "müharibələrin gözlənilməzliyini" əsas gətirərək, döyüş meydanında hadisələrin necə inkişaf edəcəyini müzakirə etməkdən imtina edib. "Əmin olduğumuz tək şey odur ki, biz Ukraynanı nə qədər çox dəstəkləsək, bu müharibə bir o qədər tez bitəcək", o deyib. Ukrayna Silahlı Qüvvələrinin Ali Baş Komandanı Valeri Zalujnının çıxılmaz vəziyyətə düşməsi və hər hansı ciddi irəliləyişləri gözləməyin yersizliyi ilə bağlı bəyanatını şərh edən Yens Stoltenberq deyib ki, Kiyevin məğlubiyyəti təkcə "Ukrayna üçün faciə olmayacaq, həm də NATO üçün təhlükəli olacaq", ona görə də "Ukraynanın qələbəsini təmin etmək" alyansın maraqlarına uyğundur. Jurnalistin Qərb nümayəndələrinin Ukrayna Silahlı Qüvvələrinin əks-hücumunun əhəmiyyətli bir uğur olmadan başa çatdığı halda, "artıq iki ildir ki, oxşar şeylər deyirlər" sözlərinə cavab olaraq, Stoltenberq etiraf edib ki, müttəfiqlər "böyük tərəqqiyə ümid edirlər".

### Amerika Ukraynaya yeni yardımı gecikdirir

NATO-nun baş katibi vurğulayıb ki, mövcud vəziyyətdən yeganə çıxış yolu Kiyevə tədarükün artırılması və hərbi məhsulların istehsalını artırmaqdır. "Biz bunun baş verməsi üçün çalışırıq", deyib. Stoltenberqin boş yerə həyəcan təbili çalmadığını ən azı Qərbin Ukraynaya elan etdiyi hərbi təchizat həcmlərindən də görmək olar. Belə ki, Almaniyadan dekabrın 2-də buraxılan hərbi yardım paketinə cəmi 3840 artilleriya mərmisi daxil idi. Müqayisə edək: qışda - yazın əvvəlində Qərb mediası münaqişənin hər iki tərəfində "mərmi qıtlığı" haqqında yazdı, o zaman "Financial Times"-a görə, Rusiya gündə təxminən 20 min artilleriya sursatı, Ukrayna isə 5 minə yaxın mərmi istifadə edib. Yəni, Berlindən gələn son silah partiyasında Ukrayna Silahlı Qüvvələri "mərmi aclığı" dövründən gündəlik normadan az sursat alıb.

Bu arada Pentaqonun rəhbəri Lloyd Ostin Reyqan Milli Müdafiə Forumunda çıxış edərək, Rusiyanın qalib gəlməsinin qarşısını alacağına söz verərək NATO baş katibinin fikirlərini təkrarlayıb. "Biz kənarda qalmağı gözə ala bilmərik", deyib. Onun sözlərinə görə, Amerika prezidenti Co Baydenin məqsədi "özünü bu gün müdafiə edə biləcək və gələcəkdə Rusiyanın yeni təcavüzünün qarşısını ala biləcək azad və suveren Ukrayna" formalaşdırmaqdır. Buna nail olmaq üçün cənab Ostin əmin edib ki, Birləşmiş Ştatlar sursat istehsalına ayrılan maliyyəni 50% artırıb və ümumilikdə Co Baydenin dövründə ölkədə artilleriya mərmilərinin istehsalı dörd dəfə artıb.

Başqa bir məsələ isə odur ki, ABŞ hələ bu mərmiləri lazımi həcmdə təmin edə bilmir. ABŞ Konqresindəki Respublikaçılar və Demokratlar hələ də Ukraynanın maliyyələşdirilməsinə əlavə 61 milyard dollar ayrılması ilə bağlı razılığa gəlməyiblər və buna görə də Vaşinqtonun Yens Stoltenberqin çağırdığı kimi yardımı artırmaqdan söhbət getmir. "Ukraynanı dəstəkləməyə davam etmək çox və çox çətin olana qədər bizim ilin sonuna qədər vaxtımız var. İlin sonu isə çox yaxındadır", - ABŞ Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bu yaxınlarda etiraf edib. Beləliklə, Qərbin "mərmi" siyasəti Ukraynanı məhvə, Rusiyanı isə yeni müharibələrə sürükləməkdədir.

***V.VƏLİYEV***

***P.S. Məqalədə xarici mənbələrə istinadlar var.***

# “ASAN” həyatımızdan 11 il ötür...

***Gündəlik həyatımızda elə vacib bir sahə var ki, bütün yaş qruplarında olan insanların o sahəyə müraciəti anbaandır. Hansı ki, o sahədə illərlə süründürməçiliklə üzləşməli, bir saata düzələn iş üçün həftələrlə hansısa dövlət orqanına ayaq döyməli olmuşuq. Əsəblərimiz gərilib, planlarımız pozulub, bəzi dövlət qurumlarına inamımız itib, ümidimiz kəsilib. Söylədiklərimizi təsdiq edəcək çox sayda insan var ki, hər hansı bir sənədin alınması, xidmətin həyata keçirilməsi üçün bunları dəfələrlə yaşayıb. O zamana qədər ki, həyatımıza “ASAN xidmət” daxil oldu. Və budur, artıq biz onunla 11 ildir ki, asan bir həyat yaşayırıq...***

## “ASAN xidmət”: son 20 ilin reallıqlarından biri

Bu, bir faktdır ki, son 20 il müstəqil Azərbaycanın tarixində şanlı bir səhifə yaradıb. Bu şanlı səhifələrə çox iklər həkk olunub. Bunlardan biri də “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13 iyul 2012-ci tarixli Fərmanı ilə yaradılan “ASAN xidmət” mərkəzləridir. O “ASAN xidmət” mərkəzləri ki, dövlətimizin başçısının uğurlu layihəsidir, artıq 11 ildir fəaliyyət göstərir və insanlar bu xidmətdən çox razıdırlar. Bu xidmətin yaradılmasının əsasında insan amili dayanır. “ASAN xidmət” ölkəmizdə vətəndaşlara verilən dəyərin bariz nümunəsi, inkişafın göstəricisi, insanların həyatına rahatlıq töhfəsidir. “ASAN xidmət” həyatımızın asanlaşdırılması, bir mərkəzdə birləşən xidmətlərlə həm vaxt, həm də artıq vəsait itkisinin qarşısının alınmasıdır.

Bakıda pilot layihə olaraq ilk “ASAN xidmət” mərkəzinin açılışı 29 dekabr 2012-ci ildə olmuşdur. Mərkəz doqquz dövlət orqanının təklif etdiyi 23 xidməti həyata keçirməklə 15 yanvar tarixində fəaliyyətə başlamışdır. Yaradılmasından ötən bir il ərzində Sumqayıtda, Gəncədə də “ASAN xidmət” mərkəzləri yaradılmış, Bakıda bu mərkəzlərin sayı 3-ə çatdırılmışdır. Artıq 2014-cü ilin əvvəlində “ASAN xidmət” mərkəzlərindən istifadə edən vətəndaşların sayı 1 milyona çatmışdır.

2014-cü il mayın 7-də Bakıda sayca dördüncü, dekabr ayında isə ölkədə yeddinci olaraq Sabirabadda “ASAN xidmət” mərkəzinin açılışı olmuşdur. 2015-ci ildə Bərdədə, həmin ilin yayında, iyulun 14-də Azərbaycanda hələlik 5 saylı Bakı “ASAN xidmət” mərkəzi açılmışdır. 2016-cı ildə Masallı və Qəbələ, 2017-ci ildə Quba, 2018-ci ildə isə Mingəçevir, İmişli və Şəki, 2019-cu ildə Şamaxı, 2020-ci ildə Kürdəmir, Tovuz, Ağcabədi və Balakən rayon sakinlərinin də həyatına bu asanlıq daxil olmuş və onlar da digər bölgələrdə olan insanlar kimi vaxt və vəsait itkisinə son qoymuşlar.

2021-ci ildə 6 saylı Bakı “ASAN xidmət” mərkəzi, 2022-ci ildə 2 saylı Gəncə regional “ASAN xidmət” mərkəzi və 7 saylı Bakı “ASAN xidmət” mərkəzi fəaliyyətə başlamış, 2023-cü ildə isə Naxçıvan Muxtar Respublikası və Salyan rayon sakinlərin çoxdankı arzuları reallaşmış və onların da həyatı “ASAN xidmət”lə asanlaşmışdır.

“ASAN xidmət”in ötən illər ərzində əldə etdiyi uğurlar da az olmamışdır. 2014-cü ildə “ASAN xidmət” İSO 9001:2008 idarəetmə standartı üzrə beynəlxalq sertifikata, həmin ilin yayında səmərəli xidmət nümunəsinə və dövlət-vətəndaş münasibətlərinə verdiyi töhfələrə görə “Uğur 2013” mükafatına, dekabrında isə OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikata, 2015-ci ildə BMT-nin 2015-ci il Dövlət Xidmətləri Mükafatına layiq görülmüşdür. 2015-ci ilin martında Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən 13 sahə üzrə keçirilən, müxtəlif dövlətlərin 700-dən çox müəssisənin müraciət etdiyi müsabiqənin “Dövlət xidmətlərinin həyata keçirilməsinin təşkilində təhlükəsiz əmək şəraitinin qurulması” sahəsi üzrə qalibi olmuşdur.



ISESCO-nun 2019-2021-ci illər üzrə üçillik fəaliyyət planında üzv ölkələrdə sektoral idarəçilik mexanizminin inkişaf etdirilməsi məqsədilə dövlət idarəçiliyi sahəsində Azərbaycanın “ASAN xidmət” modelindən faydalanmaq tövsiyə olunub. 2023-cü il aprelin 3-də Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə “Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi” adlı Qətnamə yekdilliklə qəbul edilib. Qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub.

## 11 il: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış, rahatlıq...



Bəli, “ASAN xidmət”dən söz düşəndə insanda yaranan ilkin təəssüratlar bunlardan ibarət olur: operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət, etik davranış və rahatlıq. Çünki indi həyatımızı asanlaşdıran, vaxt itkisinin qarşısını alan, çox nəzakətlə qarşılanıb, hörmətlə yola salındığımız, sayəsində əlavə vəsait xərcləmədiyimiz “ASAN xidmət”lərdən əvvəl vətəndaşların qarşılaşdıqları bir çox problemlər var idi. Elə “ASAN xidmət”in yaranmasının 11-ci ildönümündə onun uğurlarından, fəaliyyətini vətəndaş məmnunluğu ilə qura bilməsindən, operativliyi və şəffaflığından söhbət açarkən ondan əvvəlki illərdə vətəndaşlarımızın qarşılaşdığı problemləri də xatırlamağın yerinə düşdüyünü düşünərək həmin illərə qayıtmaq istəyirəm. Çünki dünəni unutsaq, bugünkülərin nə dəyərini bilərik, nə də qədrini.



Cəmi 11 il bundan əvvəl vətəndaş hər hansı bir sənədin əldə edilməsi üçün bəzən günlərlə yox, həftələrlə aid təşkilatların qapısında qalmalı olurdu. Gözləmək insanları, necə deyərlər, təngə gətirirdi. Qəbullara düşmək o qədər çətin idi ki, hər hansı sənədlə, xidmətlə bağlı aid məsul şəxslə görüşmək elə bir lotereya biletinin udması kimi şans idi. Yaxşı, görüşdün, axı bu işin həlli deyildi. Hələ ilkin məlumatı alır, istənilən bir sənədin düzəldilməsi, xidmətin həyata keçirilməsi üçün haradan başlamağı öyrənmiş olurdun. Burada işin hələlik bitirdi, başlayırdın digər idarələri, müəssisələri gəzməyə. Vaxt gəlib ay olurdu, lakin məsələn, bir evin, maşının qeydiyyata alınması işini hələ də tamam edə bilmirdin. Çünki uzun bir yolda elə maneələrlə qarşılaşırdın ki, bəzən axıra çatdıra bilmir, həll etmək istədiyin işdən əl götürməli olurdun. Açığını deyək ki, süründürməçiliyin əsasında rüşvətxorluq halları var idi. Hansısa məsul adama məlum vəsait çatdırılmadıqda, hər dəfə müraciətində səni “başdan” edir, hər dəfə yeni bəhanələr gətirirdi, təki o məbləği alanadək. İnsanlar da gəlirlərinin səviyyəsindən asılı olmayaraq həmin məbləği tapmalı, bir yerə toplamalı, sonra o işin ardınca getməli idi.

Bütün bu süründürməçilik isə vətəndaşların vaxt itkisinə səbəb olurdu. Məsələn, kəndlərdən rayon mərkəzinə hansısa bir sənəd üçün gələn adam onsuz da yarı gününü itirirdi. Sənədi ala bilməyəndə isə yenidən gəlməli olurdu ki, bu da həm vaxt, həm də vəsait itkisinə səbəb olurdu. Adam bir də kəndəevinə qayıtmalı, səhəri gün bir də o qədər əziyyət çəkməli, həmin sənədi almaq üçün rayon mərkəzinə getməli, o da ki, düzələ, ya düzəlməyə.

Bax, 11 il əvvəl belə problemlərlə qarşılaşırdı insanlar. Həm müəyyən sənədin rüsumunu dövlətə ödəyirdi, həm də müəyyən olunmuş “rüsumları” ciblərə ödəmək məcburiyyətində qalırdı. Bu rüsumu ödəmək istəmədikdə isə süründürməçiliklə yanaşı, həm də kobudluqla, nəzakətsizliklə qarşılaşırdı.

11 il əvvəl “ASAN xidmət” yaradılanda müəyyən xidmətlər var idi ki, orada cəmləndi, təbii ki, onlar yerli aid orqanlardan alındı. Bu, heç də onların ürəyincə olmadı. Çünki yuxarıda da vurğuladığım kimi, müəyyən etdikləri “rüsumlar” əllərindən çıxarıldı. Burada qazanan vətəndaş oldu. Əslində, 11 il əvvəl heç kimin ağlına belə gəlməzdi ki, zaman gələcək belə bir xidmət fəaliyyətə başlayacaq və oraya müraciət edən kəs bu qədər məmnun qalacaq.

İnsan faktorunu daim dövlət siyasətinin prioriteti hesab edən ölkəmizin başçısı vətəndaşların rifah halının yüksəldilməsi ilə yanaşı, onların rahat yaşaması, heç bir çətinliklə üzləşməməsi, sosial qayğılardan xilas olması yollarını da axtarır və bütün bunların qısa zamanda həlli yollarını tapmağa çalışırdı. Elə “ASAN xidmət”in Azərbaycan brendi kimi tətbiqi dövlətimizin başçısının sosial sahədə həyata keçirdiyi siyasətin uğurlu nəticəsi, insana amilinə verilən dəyərin göstəricisi oldu. Artıq 11 ildir ki, tətbiq olunan və hər il coğrafiyası genişləndirilən “ASAN xidmət”lə vətəndaşların həyatında müsbət dəyişikliklər baş verdi. Dövlət xidmətlərindən istifadədə onların razılığı təmin edildi.

Ardı Səh. 6

# "ASAN" həyatımızdan 11 il ötür...

Əvvəli-Səh-5

Belə ki, vətəndaşlar artıq dövlət xidmətlərindən daha operativ və keyfiyyətli formada istifadə edə bilir və bununla da insanlar arasında dövlət orqanlarına etimad artır. Bu baxımdan "ASAN xidmət"in fəaliyyəti əhali tərəfindən razılıqla qarşılanır. Mərkəzə müraciət edən vətəndaşların məmnunluğunun 98-100% arasında dəyişməsi buna bir sübutdur. Bu məmnunluq isə operativliklə, şəffaflıqla yanaşı, özündə həm də nəzakətli davranışı, məsuliyyətli yanaşmanı, etik davranışa riayət etməni və ümumilikdə vətəndaşa lazım olan rahatlığı da ehtiva edir.




### "ASAN"la sosial həyatımızın asan xəritəsi

"ASAN xidmət" eyni zamanda insanın düşüncəsində "asan xəritə" anlayışını da canlandırır. Həqiqətən də artıq "ASAN"la sosial həyatımızın asan bir xəritəsi yaranmışdır. Ötən 11 ildə bu xəritə öz coğrafiyasını genişləndirərək Bakı şəhərindən rayonlarımızadək şaxələnmiş, illərlə əziyyət çəkən insanlar üçün asan bir ünvana çevrilmişdir. Maraqlısı odur ki, bu ünvan vətəndaşların qeydiyyatı üzrə rayonlaşmır. Bütün ölkə vətəndaşları üçün eynilik təşkil edir.

Əvvəllər Bakıda yaşayan, lakin rayonda qeydiyyatda olan vətəndaşlar şəxsiyyət, sürücülük vəsiqəsini dəyişdirmək, yenidən almaq üçün rayona getmək məcburiyyətində qalırdılarsa, bunun üçün xeyli miqdarda vəsait xərcləməli-həm dövlət, həm digər "rüsumları" ödəməli olurdularsa, bu, bir vətəndaş üçün böyük məbləğdə vəsait itkisi idi. Vəsait itkisi ilə bərabər, həm də vaxt itkisi demək idi. Hər hansı bir idarə, müəssisə və təşkilatda çalışan vətəndaş iş vaxtı rayonlara gedə bilmirdi. Bayram günlərində isə iş olmadığından bu işləri həyata keçirə bilmirdi. Bu isə müəyyən çətinliklər yaradırdı. "ASAN xidmət" modelinin yaradılması ilə bu problemlər, süni əngəllər təbii ki, aradan qaldırıldı.






Həmçinin səyyar şəkildə bölgələrdə "ASAN xidmət"in fəaliyyət göstərməsi də bu problemlərin qarşısını alır. Bu model yaradılmamışdan əvvəl vətəndaşlar sosial müavinətlərini aldıqları zaman problemlərlə rastlaşırdılar. Ancaq "ASAN xidmət" və "Asan Səyyar Xidmət"-in təşkili ilə istər Bakı şəhərində, istərsə də regionlarda yaşayan əhalinin problemlərinin həlli asanlaşıb.

"ASAN xidmət"in yaratdığı mobil tətbiq vətəndaşların işini daha da asanlaşdırır. Mobil tətbiqin yaradılmasında əsas məqsəd vətəndaşlar üçün çevikliyi təmin etməklə, onların əlavə vaxt itkisinin, məsrəflərinin qarşısını almaqdır. "ASAN xidmət" mobil tətbiq vasitəsi ilə vətəndaş "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində müvafiq xidmət mərkəzini seçə, zəruri sənədlərin siyahısı ilə tanış ola və növbə götürə bilir. Həmçinin seçilmiş xidmət üzrə təqdim olunan mərkəzlərdə növbə sayı və növbənin bitmə vaxtı ilə tanış ola və müvafiq mərkəzi seçə bilir. Eyni zamanda "ASAN xidmət" mobil tətbiqində vətəndaşlar üçün onlayn müraciət və telefon vasitəsi ilə 108 "Çağrı" mərkəzi ilə əlaqə, vətəndaşın dayandığı mövqedən xidmət mərkəzinə xəritə əldə etmək imkanı yaradılıb

"ASAN xidmət" mərkəzləri xidmətləri vətəndaşlara "vahid pəncərə" prinsipinə əsaslanaraq təklif edilir. Yəni vətəndaşlar eyni bir məkanda müxtəlif dövlət qurumlarının istənilən xidmətlərindən eyni vaxtda yararlana bilirlər. Bu da vətəndaşların fərdi xərclərini azaldır və vaxt itkisini aradan qaldırır. Mərkəzlərin fəaliyyətinin əsas üstünlüklərindən biri də həftənin bütün günlərində vətəndaşlara fasiləsiz xidmət göstərməsidir.

Bütün bunlar isə "ASAN"a aid xəritədə birləşir. Bu xəritə isə özündə Azərbaycan vətəndaşlarını birləşdirir. Onlara asan xidmətlər göstərir. Vətəndaş bu xidmətdən necə məmnun qalmaya bilər?..

### "ASAN könüllü"sündən dövlət qulluqçusuna...

Prezident İlham Əliyev demişdir: Azərbaycanda çox müasir, dövlətə, Vətənə bağlı olan gənc nəsil yetişir və "ASAN könüllüləri"nin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki onlar bu işlərə könüllü şəkildə qoşulurlar, özləri bu təşəbbüsü göstərirlər və işləri ilə ölkəmizin ümumi inkişafına töhfə verirlər...

Bəli, "ASAN xidmət"in yaradılması ölkəmiz, onun vətəndaşları üçün nə qədər əhəmiyyətli oldusa, "ASAN xidmət"lərdə həyata keçirilən "könüllü fəaliyyət" proqramları da bir o qədər əhəmiyyətli oldu. Hər il yüzlərlə gənc könüllü şəkildə bu mərkəzlərə gəlir, öz iş qabiliyyətlərini və intellekt səviyyələrini gücləndirirlər. Bu, tək intellekti gücləndirmək yox, həm də gələcəkdə dövlət qulluqçusu kimi fəaliyyət göstərməyə hazırlıq deməkdir. "ASAN xidmət" mərkəzlərində olarkən qarşılaşdığımız könüllülər bütün xidmət sahələrində növbəli şəkildə fəaliyyət göstərirlər. Bu fəaliyyətləri ilə onlar da təbii ki, vətəndaş məmnunluğunun təmin edilməsinə yardımçı olurlar.

Könüllülər müqavilə əsasında 2 ay müddətində fəaliyyət göstərir, müqavilədə nəzərdə tutulmuş öhdəlikləri 2 ay ərzində həyata keçirən könüllülərə agentliyin rəsmi sertifikat və xasiyyətnaməsi verilir. Könüllü fəaliyyət müddəti ərzində ilk cəlb olunmuş könüllülər vətəndaşların qarşılanması, məlumatlandırılması, anketlərin doldurulması, elektron lövhələrdə işləmə, sıra növbələrinin verilməsi kimi işlərlə məşğul olurlar. Gənclərin könüllü fəaliyyətə marağının artması və könüllü axınının çoxalması bu fəaliyyətin "ASAN xidmət" mərkəzləri ilə yanaşı, agentliyin digər sahələrində tətbiqinə də yol açıb. Belə ki, könüllülər agentliyin sosial innovasiyalar və strateji araşdırmalar, nəzarət və qiymətləndirmə şöbələrinə xidmətə cəlb olunurlar və bununla da onlar bir çox sahələr üzrə yeni təcrübələrə yiyələnirlər.

2012-ci ildən bu günədək minlərlə gənc "ASAN könüllüləri"nə çevrilib, onlar nəinki ölkəmizin sosial həyatında, həm də ictimai həyatında fəallıq göstərirlər. Eyni zamanda "ASAN School"dan keçərək gələcək karyeralarını da qururlar.

"ASAN könüllüləri"nin I Ümumrespublika Forumunda çıxış edən Prezident İlham Əliyev bildirib: "Şadam ki, artıq "ASAN xidmət"in böyük könüllülər dəstəsi vardır. "ASAN xidmət" cəmi iki ilə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət ərzində 2 mindən çox könüllü "ASAN xidmət"də işləmişdir, təcrübə toplamışdır və ümumi işimizə öz töhfəsini vermişdir. Hazırda 500 könüllü bizim mərkəzlərdə çalışır və beləliklə, gözəl bir gənc nəsil yetişir. Gənclərimiz bizim gələcəyimizdir... Əminəm ki, bütün başqa sahələrdə könüllülər institutu Azərbaycanda daha da sürətlə formalaşacaq və ümumiyyətlə, bu, cəmiyyətin niyyətini ifadə edir. Çünki Azərbaycanda hazırda mövcud olan ictimai-siyasi vəziyyət, gözəl ab-hava belə təşəbbüslərin irəli sürülməsinə imkan yaradır..."

Bəli, ötən 11 il vətəndaşlara tək "ASAN" həyat bəxş etməyib, eyni zamanda onların övladlarının da məşğulluğu üçün böyük rol oynayıb. Bu gün ölkəmizdə yüzlərlə gənc könüllülükdən dövlət qulluqçusunadək yüksəlib, üstəlik bu qurumda müxtəlif yüksək vəzifələri icra etməkdədir. Bütün "ASAN"çılar ölkədə nüfuz sahibləridirlər. Çünki bu yeni modelin tətbiqini ürəklə, bacarıqla, insanların məmnunluğunu qazanmaqla həyata keçirirlər.

### Dövlət qayğısı-məmnunluğun ifadəsi

Ötən il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin 10 illiyi (2012-2022)" Azərbaycan Respublikasının yubiley medalının və "ASAN xidmət" ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 697-VIQD nömrəli Qanununun tətbiqi haqqında" 27 dekabr 2022-ci il tarixli Fərmanı və "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında" 27 dekabr 2022-ci il tarixli Sərəncamı "ASAN xidmət" İşçilərinin Peşə Bayramı Gününə və ilk "ASAN xidmət" mərkəzinin fəaliyyətə başlamasının 10-cu ildönümünə böyük töhfə idi. Dövlətimizin başçısının imzaladığı bu sənədlər eyni zamanda vətəndaş məmnuniyyətini qazanmış bu quruma və onun əməkdaşlarına məmnunluğun ifadəsi idi. Gününüz mübarək, əziz "ASAN"çılar. Ümidvarıq ki, sayənizdə qarşıdakı həyatımız bundan da asan olacaq.

**Mətanət Məmmədova**

# Yeni İl süfrəsini necə dizayn edək?



**_Yeni il günü evdə ailəniz və sevdiklərinizlə maraqlı və ümid dolu süfrə qurmaq arzusundasınız? Dadlı Yeni il süfrəsini necə hazırlamaq olar? Yeni il süfrəsinin bəzəyi necə olmalıdır?_**







SİA mövzu ilə bağlı araşdırma edib.

Yeni il süfrəsini necə hazırlamaq olar?

Yeni il süfrələri həm gündəlik, həm də bütün digər qonaq masalarından bir az fərqlidir. Yeni il süfrəsi təkcə sevdiyiniz insanlarla xoş axşam keçirməyi deyil, həm də sevdiklərinizlə birlikdə ümidlə dolu yepyeni ilə addım atmağı simvollaşdırır.

### İddialı bir rəng seçin

Yeni il süfrəsi qurmazdan əvvəl qərar verməli olduğunuz ilk şey istifadə edəcəyiniz rəng mövzusudur. Təbii ki, Yeni il süfrəsi dedikdə ağla ilk gələn rənglər qırmızı, yaşıl və qızılı tonlardır. Lakin Yeni il süfrəsinin bəzəyi artıq bu rənglərlə məhdudlaşmır. Yaratdığınız masanı ağ süfrə, ağ salfetlər və qızılı salfet üzükləri, qızılı boşqablar, qızılı bıçaqlar və bəyaz şam yeməyi dəsti ilə bəzəyərək nəcib ab-hava yarada bilərsiniz. Yeni il gecəsinin şənlik ruhunu süfrənizdə əks etdirmək üçün çəhrayı, yaşıl, sarı və mavinin neon tonlarından istifadə edərək süfrənizi rəngarəng edə bilərsiniz. Daha müasir və zərif bir görünüş üçün qara-ağ kontrast və gümüşün parıltısından faydalana, təbii görünməsi üçün isə masada bambuk, hörmə və rattan materiallardan istifadə edərək yeni ili bohem stillə qarşılaya bilərsiniz. Klassik və vaxtsız yeni il süfrəsini bəzəmək üçün təbii ki, qırmızı süfrə, yaşıl-qırmızı damalı nahar dəsti və qızılı süfrə aksesuarları mütləqdir.

### Parıltıya heç vaxt laqeyd yanaşmayın

Stiliniz nə qədər sadə olsa da, Yeni il gecəsi parıldamaq deməkdir. Bu səbəbdən məqbul miqdarda parlaqlıq Yeni il süfrəsinin vazkeçilməz əşyaları arasında olmalıdır. Əgər siz parıldamaq istəmirsinizsə, şüşə qablar, bıçaq və ya salfet üzüklərinizə kiçik daş detallar və ya metal naxışlar əlavə edə bilərsiniz. Yeni il süfrənizin parlaq olmasını istəyirsinizsə, qızılı və zərli şamdanlar, qızılı kənar detallı kristal qədəhlər və masa boyunca yerləşdirə biləcəyiniz LED işıq axtardığınız parıltını təmin edə bilər.

### Fokus nöqtəsi yaradın

Rəng mövzunuza və parıldama səviyyəsinə qərar verdikdən sonra Milad süfrənizin əsas nöqtəsini təyin etməyin vaxtı gəldi. Masanın mərkəzi mövqeyində yerləşəcək bu obyekt zövqünüzü və üslubunuzu əks etdirən istənilən element ola bilər: romantik ağ qızılgül buketi, parıldayan şamlar, mirvarilərlə bəzədilmiş bəzək əşyası və ya mini yolka...

### Xüsusi toxunuşlar

Yeni il süfrənizin bəzəyinin unudulmaz olmasını istəyirsinizsə, qonaqlarınıza unudulmaz və orijinal elementlər təqdim etməlisiniz. Öz əlinizlə hazırladığınız salfet ornamenti, qeyri-adi rəng mövzusu və ya hər qonağın boşqabına yerləşdirə biləcəyiniz kiçik hədiyyə qutuları sizə ilham verəcək nümunə ola bilər. Bu xüsusi toxunuş sayəsində siz sevdiklərinizin həmişə xatırlayacağı Yeni il süfrəsi yaratmağa zəmanət verə bilərsiniz.

### Klassiklərdən kənara çıxmayın



Müasir süfrə bəzək anlayışlarında bir çox müasir elementlər ön plana çıxsa da, yeni il süfrəsi hazırlayarkən bəzi klassik elementlərdən imtina edilməməlidir. Masanızın dizaynı nə qədər müasir olsa da, onun yeni il süfrəsi olduğunu göstərən bəzi armaturları qaçırmamaqda fayda var. Yemək süfrənizi şamlarla işıqlandırmaq üçün istifadə edə biləcəyiniz şamdan, bir neçə parıldayan masa ləvazimatları, şam ağacını xatırladacaq yaşıllıqlar Yeni il süfrənizdə mütləq olması lazım olan klassiklər arasındadır. Klassikləri və trendləri bir araya gətirməkdən qorxmayın. Düzgün və ölçülüb-biçilmiş masa bəzəyi yaratsanız, əldə edəcəyiniz nəticə hətta sizi də təəccübləndirəcək.

### Yeni il süfrəsində nə olmalıdır?

**Yeni il süfrəsini bəzəmək üçün təkliflər**

Evdə yeni il süfrəsi hazırlayarkən bu 5 addımı izləməklə sistemli şəkildə qəşəng süfrə qurmaq olar. Ancaq Yeni il süfrənizi bəzəyərkən qarşılaşacağınız saysız-hesabsız variantlar arasından seçim etməkdə və son qərarı verməkdə çətinlik çəkə bilərsiniz. Bu səbəbdən də Yeni il süfrəsində mütləq yer almalı olanlar siyahısına nəzər salaraq sadə, zərif və ən əsası dadlı süfrə qura bilərsiniz:

Boşqablar
Çəngəl-bıçaq -qaşıq dəsti
İçki qabları: Su stəkanı, sərinləşdirici içki şüşəsi, spirtli içkilər üçün qədəh
Parça salfet və salfet halqası
Supla (Salfet üzüyü)
Süfrə
Şamdan və şamlar
Diqqət mərkəzi yaradacaq çiçək buket yaxud hər hansı dekorativ obyekt
Hər qonağın boşqabına qoyulacaq kiçik bir suvenir

***Ayşən Vəli***

ARAŞDIRMA

# Qalibiyyəti imzası ilə yazan Lider!



*Mövcud fakt və reallıq ondan ibarətdir ki, Azərbaycan min illik dövlətçilik tarixində bugünkü qədər güclü və qüdrətli olmayıb. 30 il işğal altında olmuş Qarabağı erməni işağlından azad etməklə Azərbaycan gücünə güc qatdı, zəfərlərini, qələbələrini daha geniş şəkildə təqdim etdi. Möhtəşəm qələbələrə, böyük zəfərlərə imza atan Azərbaycan dövləti dünyanın ən aparıcı dövlətlərdən biridir. Hüquqi, demokratik dövlət quruculuğuna xüsusi önəm verən Azərbaycan bununla dünyanın azad, demokratik dövləti olduğunu nümayiş etdirir. Təbii ki, uğurlarımız hələ qabaqdadır. Hələ böyük zəfərlər, möhtəşəm uğurlara imza atılacaq.*

Bütün bu uğurlara görə Prezident İlham Əliyevə minnətdarlıq borcumuz var. Məhz Onun 44 günlük Vətən Müharibəsi dövründəki titanik fəaliyyəti, müdrik Liderlik bacarığı sayəsində 30 illik erməni işğalına son qoyuldu, torpaqlarımız azadlığına qovuşdu. Yenilməz Sərkərdə, Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşadan Azərbaycan xalqına müraciətində demişdir: “Biz bu arzunu, Azərbaycan xalqının arzusunu yerinə yetirdik. 2020-ci il 8 noyabr tarixdə əbədi qalacaq. O gün mənə, bax, bu meydandan Şuşanın azadlığı ilə bağlı hərbi raport verildən sonra, bu binanın üstünə Bayrağımız qaldırılandan sonra atamın məzarını ziyarət etdim və ürəyimdə dedim ki, “Tapşırıq yerinə yetirildi. Məruzə edir Ali Baş Komandan İlham Əliyev!”. Ondan sonra Şəhidlər xiyabanını ziyarət etdim, şəhidlərimizin ruhu qarşısında baş əydim, ürəyimdə dedim ki, qanınız yerdə qalmadı”.



### “Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”

Azərbaycan Prezidenti İlham Əliyev 20 il öncə prezident seçkilərində verdiyi bütün vədləri artıqlaması ilə yerinə yetirib. Bununla da həm də tarixə vədinə və imzasına əməl edən Lider kimi düşüb. Ulu Öndər Heydər Əliyev 01.10.2003-cü il tarixli xalqa müraciətində deyilirdi: “Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn Prezident seçkilərində Prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”. Beləliklə, qədirbilən Azərbaycan xalqı 2003-cü ilin 15 oktyabrı tarixində keçirilmiş seçkilərdə öz səsini Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə və ölkədə sabitliyin qorunmasına üçün Onun ən layiqli siyasi varisi Cənab İlham Əliyevə verdi. 20 il ərzində Azərbaycan iqtisadiyyatı davamlı və dinamik inkişaf edib, böyük tərəqqiyə, nailiyyətlərə imza atılıb. Ötən 20 il ərzində reallaşdırılan irimiqyaslı beynəlxalq və regional layihələr Azərbaycanın iştirakı, onun milli maraqları nəzərə alınmaqla həyata keçirilib. 1994-cü ildə imzalanan “Əsrin müqaviləsi” ilə əsası qoyulan neft strategiyası sonrakı illərdə də davam etdirilib. Azərbaycanın qazandığı nailiyyətlərin təməlində məhz bu strategiya dayanır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi misilsiz layihələr reallaşdırılıb. 2018-ci ildə Avropanın enerji təhlükəsizliyində böyük rola malik Cənub Qaz Dəhlizinin və onun tərkib hissəsi olan TANAP boru kəmərinin rəsmi açılış mərasimləri keçirilib. TAP layihəsi ilə bağlı işlər yekunlaşmaq üzrədir. Həmçinin, “Əsrin müqaviləsi” 2050-ci ilə qədər uzadılıb. Eyni zamanda, dövlətimizin başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib. Azərbaycanın Rusiya, İran və Gürcüstanla sərhədinə qədər yeni magistral avtomobil yolları tikilib. Prezident İlham Əliyev 15 oktyabr 2023-cü il də Xankəndi şəhərində Azərbaycanın üçrəngli bayrağını ucaltdığı zaman əldə olunan uğurlardan bəhs edərkən demişdir: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və “Qurani-Kərim”ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi”.






### Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son 20 ildə ölkənin sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlər

• Dünya Bankının qiymətləndirilmələrinə görə, Azərbaycan 2002-2022-ci illərdə yuxarı orta gəlirli ölkələr qrupuna daxil olub;

• Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına çatıb, ÜDM-nin real həcmi 4 dəfə artıb;

• Dövlət büdcəsinin xərcləri 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur;

• 20 ildə ölkəmizdə dövlət büdcəsinin illik sosial müdafiə xərcləri 20 dəfədən çox artıb. Bu dövrdə minimum əməkhaqqı 38 dəfə, orta aylıq əməkhaqqı 12 dəfə, minimum pensiya 14 dəfə, orta aylıq pensiya 18 dəfə, yaşa görə orta aylıq pensiya 19 dəfə, əlilliyə görə pensiya 14 dəfə, ailə başçısını itirməyə görə pensiya 19 dəfə artıb. Pensiya üzrə ödənilən illik vəsait həmin dövrdə 30 dəfə artaraq 6 milyard manata çatıb.

• 2003-cü illə müqayisədə 2022-ci ildə yoxsulluq səviyyəsi 44,7 faizdən 5,5 faizə enib, orta aylıq əməkhaqqı 77.4 manatdan 839,4 manata yüksəlib;

• Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına çatıb;

• Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına yüksəlib;

• İxracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına çatıb;

• Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına yüksəlib;

• 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artıb;

• Xarici ticarətin profisiti 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarınadək artıb;

• Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir;

• Strateji valyuta ehtiyatları 1,4 milyard ABŞ dollarından 66,1 milyard ABŞ dollarına yüksəlib;

• İqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib;

• Sənayedə məhsul istehsalının həcmi 4,0 milyard manatdan 86,4 milyard manata qədər yüksəlib;

• Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 54,9 faizdən 87,6 faizə qədər yüksəlib;

• Dövlət tərəfindən həyata keçirilən dəstək tədbirləri nəticəsində 2003-2022-ci illər ərzində iqtisadi artımın əlavə hərəkətverici qüvvəsi olan qeyr-neft-qaz sənayesində yaradılmış əlavə dəyər real olaraq 4,7 dəfə artıb;

• Ötən müddət ərzində məhsul buraxılışının nominal həcmi 13,5 dəfə böyüyüb, əhalinin gəlirləri 10,5 dəfə artıb;

• Dövlət Proqramları əsasında regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir;

• Respublikanın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqroparkın yaradılması üzrə işlər aparılır;

• 2004-cü ildən bəri regionlarda 1,8 milyarddan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb;

• Ötən müddət ərzində 60-dan çox yeni elektrik stansiyası istismara verilib;

• Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb;

• Fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-a çatıb;

• Ötən müddət ərzində əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 450-dən çox uşaq bağçası, 760-a yaxın tibb müəssisəsi, 17 min kilometrdən çox avtomobil yolu, 500-dən çox körpü və tunellər tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib;

• Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 12 milyard manatdan artıq vəsait ayrılmışdır;

• 2002-ci illə müqayisədə vergi daxilolmalarda artım 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan daxilolmalar isə 23,4 dəfəyədək artıb;

• Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalar son 20 il ərzində 35,8 dəfə artıb;

• Sahibkarlıq subyektlərin sayı 180 mindən 1,5 milyona qədər artıb;

• Ötən müddət ərzində 23 mindən artıq kiçik müəssisə və obyekt özəl mülkiyyətə keçib;

• Dövlət əmlakının özəlləşdirilməsi nəticəsində 300 mindən artıq iş yeri açılıb, 220 mindən çox şəxs səhm sahibi olub.

### Dünyanın ən çox islahat aparan ölkəsi - Azərbaycan

Azərbaycanın sosial-iqtisadi sahədə əldə etdiyi uğurları beynəlxal maliyyə institutları da yaydıqları hesabatlarda qeyd edirlər. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycan dünyanın ən çox islahat aparan ölkəsi elan olunub və 190 dövlət arasında 25-ci yeri tutub. “Doing Business 2020” hesabatında isə Azərbaycan daha 5 pillə irəliləyərək ən islahatçı 20 ölkə sırasına daxil edilib. Davos Dünya İqtisadi Forumunun 2020-ci ilin hesabatına əsasən, Azərbaycan hökumətin uzunmüddətli strategiyası üzrə dünyada 10-cu yerdə, ölkə rəhbərliyinin islahatlara sadiqliyi sahəsində isə 5-ci yerdə qərarlaşıb. Davos hesabatına əsasən, Azərbaycan əhalinin elektrik enerjisinə əlçatanlıq əmsalına görə dünyada 2-ci, dəmir yolu xidmətlərinin səmərəliliyinə görə 11-ci, hava nəqliyyatı xidmətlərinin səmərəliliyinə görə 12-ci, dəniz limanları xidmətlərinin səmərəliliyinə görə 25-ci və yol infrastrukturunun keyfiyyəti baxımından 27-ci yerdədir Azərbaycanın neft sektoruna investisiya yatıran xarici ölkələr siyahısının ilk beşliyində Böyük Britaniya, ABŞ, Türkiyə, Norveç, Yaponiya kimi ölkələr qərarlaşıb. Son 20 ildə iqtisadiyyata yönəldilən investisiyalar 2,8 milyard ABŞ dollarından 17,1 milyard ABŞ dollara qədər yüksəlib. 2003-2022-ci illərdə ölkə iqtisadiyyatına yatırılan ümumi investisiya həcmi 310,4 milyard dollar təşkil edib. Ölkə iqtisadiyyatına yatırılmış birbaşa investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 82,8% təşkil edib. Ölkə iqtisadiyyatının qeyri-neft sektoruna ən çox investisiya yatıran ölkələrin ilk beşliyində isə Türkiyə, Böyük Britaniya, ABŞ, Niderland və Rusiyanı qeyd etmək olar. İndiyədək Azərbaycanda xarici ölkələrin müxtəlif sahələri əhatə edən 9000-dən çox şirkəti qeydiyyatdan keçib. Xarici şirkətlər Azərbaycanda dövlət əsaslı vəsait hesabına həyata keçirilən infrastruktur və digər layihələrdə podratçı və subpodratçı qismində də fəal iştirak edirlər. Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı, eyni zamanda, investisiya ixracatçısına çevirib. Ötən müddət ərzində Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmlərdə investisiya yatırılıb.

### Ölkəmizdə yeniləşmə, davamlı inkişaf mühüm rola malikdir

Regionların sosial-iqtisadi inkişafına dair həyata keçirilən dövlət proqramları sayəsində bölgələrdə inkişaf prosesləri sürətləndi, kənd təsərrüfatının müxtəlif sahələri ilə bağlı konkret proqramlar icra olundu. İşsizliyin və yoxsulluğun səviyyəsi aşağı düşdü, Azərbaycanda 2 milyondan çox yeni iş yeri yaradıldı. Ölkədə qeyri-neft sektorunun inkişafı üçün güclü zəmin formalaşdı. Prezidentlik fəaliyyətinin ilk dövründə İlham Əliyev “Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında” 24 noyabr 2003-cü il tarixli Fərman imzalamışdır. Regionların inkişafına dair uğurla icra edilən Dövlət Proqramları Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib. Ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmini üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir. Yeni bölgüyə əsasən isə, iqtisadi rayonların sayı 10-dan 14-ə çatdırılıb. Bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir. Bunun üçün Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları) yaradılıb.

*Azərbaycanın müxtəlif bölgələrində inkişafın yeni əsaslarını yaratdı, tərəqqi prosesini növbəti uğurlu mərhələyə keçirdi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı ilə iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib.*

Bir sözlə, Yenilməz Sərkərdə, Ali Baş Komandan, Prezident İlham Əliyev ötən 20 il ərzində bəyan etdiyi strateji hədəflərə nail olub, verdiyi vədləri yerinə yetirib. Ona görə də Azərbaycan bəşəriyyətin ən sayılıb, seçilən və hörmət edilən dövlətinə çevrilib. Bu və digər uğurlara, xüsusilə də, 30 il erməni işğalı altında olmuş torpaqlarımızı azad edib, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə, 80 milyonluq dünya azərbaycanlılarının lideri, Prezidentimiz İlham Əliyev bəşər tarixinə adını Qalib Sərkərdə olaraq yazdırdı. Yuxarıda qeyd etdiyim kimi, Azərbaycanın əldə edəcəyi böyük qələbələr hələ qabaqdadır. Çünki Ulu Öndərimizin əsasını qoyduğu siyasət və Prezident İlham Əliyev tərəfindən davam etdirilən strategiya dövlətimizə və xalqımıza yalnız və yalnız uğurlar və qələbələr vəd edir.

**İLHAM ƏLİYEV**



“2023-cü il yaddaşımızda suverenliyimizin tam bərpası ili kimi qalacaq. Bu il həm də Azərbaycan xalqı və dövlətçiliyinin əbədi olaraq mövcud olması uğrunda canını fəda etmiş bir insanın, Ulu Öndərimiz Heydər Əliyevin anadan olmasının 100 illiyi tamam oldu. Onun ideallarının bu gün Prezident İlham Əliyev tərəfindən daha təkmil və müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi bizi qürurlandırdı. Bu gün Qarabağımızın 30 illik işğalına son qoyulub, Ali baş Komandanımızın böyük sərkərdəlik şücaəti nəticəsində itirilmiş torpaqlarımızın bir hissəsi 200 ildən sonra geri alındı. Artıq məcburi köçkünlərin statusu dəyişib, işğaldan azad edilmiş torpaqlarımıza Böyük Qayıdış başlanıb. Azərbaycanın bütün dünya tərəfindən tanınan ərazilərində üçrəngli bayrağımız dalğalanır”. Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

## "20 ildə əldə edilən nailiyyətlərin miqyası daha böyükdür”

Deputat bildirib ki, son günlərini yaşadığımız ili Prezident İlham Əliyevin 20 illik rəhbərliyi dövründə Azərbaycanda yürüdülən uğurlu siyasətin yekunu və gələcəyə hesablanmış işlərin stimulu da adlandırmaq olar: “Düz 20 il bundan əvvəl Azərbaycan xalqı İlham Əliyevə etimad göstərərək prezident seçkilərində ona səs verdi. O vaxt İlham Əliyev xalqa müraciət edərək söz verdi ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcək, Azərbaycan ərazi bütövlüyünü qoruyacaq. Beləcə 20 il ərzində verdiyi bütün vədləri, qarşıya qoyduğu bütün vəzifələri icra etdi. Prezident İlham Əliyevin yürütdüyü siyasət müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edir. Prezident İlham Əliyev öz islahatçı kursuna sadiq qalaraq 2021-ci ildə YAP-da mahiyyət etibarı ilə dəyişikliklərə səbəb olmuş islahatlar təşəbbüsü ilə çıxış etdi. 2021-ci ilin 5 mart tarixində Partiyanın VII Qurultayında yeni Nizamnamə təsdiq olunmuş və bununla da Partiya sədrinin birinci müavini vəzifəsi təsis olundu, İdarə Heyəti, Təftiş Komissiyası, Veteranlar Şurası, Gənclər Birliyi və Mərkəzi Aparatı yaradıldı. Partiyanın yeni Proqramı qəbul edildi, həmçinin kadr islahatlarına başlanıldı. Prezident İlham Əliyevin hakimiyyətdə olduğu son 20 ildə ölkənin sosial-iqtisadi sahədə əldə edilən nailiyyətlərin miqyası daha böyükdür”.

**Səbinə Hüseynli**

## "Əli Kərimlini satın alanlar kimlərdirsə, danışdıran da onlardır"



**ŞƏRH**

***“Bilmirəm, diqqət etmisiz ya yox, amma AXCP sədri Əli Kərimli son günlər xüsusi canfəşanlıq edir və antimilli fəaliyyətini daha da genişləndirməklə məşğuldur. Sizcə niyə? Həm də durub-dururkən? Ona görə ki, bu yaramaz məxluqa konkret dairələrdən təlimat, əmr, sifariş gəlib. Ona görə ki, bu adam missionerdir. Ona görə ki, Əli Kərimlinin çörəyi ləyaqətsizlikdən, şərəfsizlikdən, həyasızlıqdan çıxır". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Elşən Musayev deyib.***

E.Musayev bildirib ki, onun söylədiyi hər tənqidin, hər təhqirin öz qiyməti, öz “tas”ı var: ”AXCP sədri əsla və əsla pulsuz danışmır. Əli Kərimlini satın alanlar kimlərdisə, danışdıran da onlardır. Utanmadan vətən sevgisindən, azadlıqdan, hüquqdan, ideyalardan dəm vurur. Xarici qüvvələrin əlində alət olan adam necə vətən sevgisindən danışa bilər? Qarabağın işğaldan azad olunmasına, Şuşanın xilasına sevinə bilməyən bədnam necə Azərbaycan adını dilinə gətirə bilər? Öz lideri Elçibəyi, ətrafındakı bütün dostlarını satan, mənəviyyatını, şəxsiyyətini, ləyaqətini itirən adam hansı haqla ideyalardan, gələcək planlardan söhbət sala bilər?”.

Onun sözlərinə görə, Əli Kərimli siyasi qolçomaqdır: ”Əli Kərimli həyatın dibidir. Əli Kərimli bu xalqın bir nömrəli düşmənidir və zamanı gələndə elədiyi bütün ləyaqətsizliklərə, törətdiyi bütün təxribat və cinayətlərə görə cavab verəcək. Həm qanun, həm də tarix qarşısında!”

**Ləman Sərraf**



# Sədası 2500 il əvvəldən gələn Qarabağ xalçaları

*Dekabrın 28-də Laçın şəhərində "İslimi" Xalçaçılıq mərkəzinin açılışı olub. Mərasimdə Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov, "Bakı Abadlıq Xidməti" MMC-nin, "Laçın Abadlıq Xidməti" ASC-nin və ictimaiyyətin nümayəndələri iştirak edib.*







Mərkəzdə yaradılan şəraitlə tanışlıq olub. Məlumat verilib ki, Laçında fəliyyətə başlayan mərkəzlərdən biri də "İslimi" Xalçaçılıq mərkəzidir. Laçının hələ qədimdən məhşur xalçalarının olduğu nəzərə alınaraq bu mərkəz yaradılıb. Burada Laçın çeşnilərini özündə əks erdirən xalçaların ərsəyə gətirilməsi ilə yanaşı həm də sakinlərin məşğulluğu təmin olunacaq.

Şərqdə xalça deyəndə yada düşən ilk yerlərdən biri məhz Qarabağ olub. Təsadüfi deyil ki, Altayda Pazırıq kurqanlarından tapılmış və ən qədim xalça nümunəsi hesab edilən (2500 il əvvəl) "Pazırıq" xalçası da Qarabağda toxunub. Hələ X əsrdən başlayaraq yun və pambıq emalı ilə məşğul olan iri sənətkarlıq mərkəzi kimi tanınan Qarabağda xammal ehtiyatının bolluğu bölgədə toxuculuğun geniş yayılmasına təkan verib. Toxunan xalçaların ipini əhali özü hazırlayırdı. Yun qırxılır, yuyulur, daranır, cəhrədə əyrilib ip edilirdi. Yun həm təbii yolla, həm də cövhərlə boyanırdı. Müxtəlif rənglərin alınmasında təbii boyaq vasitəsi kimi soğan, fındıq və alma qabığı, boyaqotu, qoz ağacı, gəndalaş və sair kimi vasitələrdən istifadə edilib.

Azərbaycanın milli ornamenti sayılan buta, xonça, müxtəlif heyvan (at, qoç, pələng, şir, maral, qartal və sair) təsvirləri, təbiət mənzərələri, ov səhnələri Qarabağ xalçalarında geniş istifadə olunub. Qarabağ xalçalarının forması düzbucaqlı, rəng-boyaq palitrası olduqca zəngin olub. Yerli qoyun növlərinin yununun xüsusiyyətlərinə görə Qarabağ xalçaları sıx, hündür və yumşaq xova malikdir. Bu xalçaların ilmə hündürlüyü 6-10 millimetr, ilmə sıxlığı hər kvadratmetr sahədə 90 mindən 160 minədək olurdu. "Açma-yumma", "Aran", "Bağçadagüllər", "Balıq", "Buynuz", "Bərdə", "Bəhmənli", "Qarabağ", "Muğan", "Xanlıq", "Çələbi", "Şabalıdbuta" və sair çeşnili xalça kompozisiyaları Qarabağ xalçaçılıq məktəbinin klassik nümunələrindən hesab edilir.

Şuşa şəhərinin Qarabağ xanlığının paytaxtı olması, mədəniyyət və incəsənət mərkəzi kimi inkişaf etməsi, Qarabağın İran, Türkiyə, Ərəbistan, Hindistan və Rusiya ilə karvan ticarət yollarının qovuşuğunda yerləşməsi burada xalçaçılığın inkişafına səbəb olub.

Qarabağ xalçaçılıq ənənələrinin qorunub saxlanılmasında Ağdam xalça fabrikinin böyük rolu olub. Ötən əsrin ortalarına qədər xalça istehsalı fərdi şəkildə evlərdə həyata keçirilirdi. 1939-cu ildə Ağdamda xalça fabriki yaradılıb. Ağdam xalça fabrikinin fəaliyyəti 1980-ci ildən daha da genişlənib və Ağdam Xalçaçılıq İstehsalat Birliyi yaradılıb. Birliyin Bərdə, Xocalı, Şuşa, Baş Güney, Papravənd, Əlimədədli, Mərzilidə filialları, sexləri fəaliyyət göstərirdi. İstehsalat Birliyində ildə 3 min kvadratmetrə yaxın xalça toxunurdu.

XVIII əsrin tarixi-memarlıq abidəsi sayılan general Səməd bəy Mehmandarovun malikanəsində fəaliyyət göstərən Xalça muzeyində 200-dən çox xalça və xalça məmulatı saxlanılırdı.

Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü xalçaçılığa da ağır zərbə vurdu. 1992-ci ildə Şuşanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ərəfəsində muzey əməkdaşlarının fədakarlığı nəticəsində XIX–XX əsrlərə aid olan xalçalar və digər eksponatlar xilas edilərək Bakıya gətirilib. Muzey-malikanə isə erməni vandalları tərəfindən dağıdılıb. Ağdamın yenidən qurulması prosesində Xalça Muzeyinin də parpa edilməsi qarşıya qoyulan əsas hədəflərdən biridir.

***Lalə Mehralı***

# "Fransa üçün beynəlxalq dəyərlər çoxdan ayaqlar altına atılıb"



***"Tarixi bütünlüklə soyqırım və işğallarla, ayrı-ayrı xalqlara qarşı terror hücumları və əraziləri işğal ilə dolu olan dövlət bu gün Cənubi Qafqazda yeni reallıqlar formalaşdıran və regionun uğurları uğrunda mübarizə aparan Azərbaycana "beynəlxalq hüquq"dan dərs keçməyə çalışır. Təəssüf ki, Fransanın Cənubi Qafqazla bağlı siyasəti dünyanın bir çox bölgələrində olduğu kimi yenə də neo-imperialist maraqlara xidmət edir və hədəf isə bölgə dövlətləridir.***

Cənubi Qafqaza münasibətdə də region dövlətlərinin maraqlarını tapdalayaraq, özlərinin çirkin maraqlarını həyata keçirmək istəyirlər". Bu sözləri SİA-ya açıqlamasında politoloq Anar Əliyev deyib. Politoloq bildirib ki, bölgədə Fransanın bu siyasətini qəbul edən Ermənistan dövləti və xalqı var: "Onlar başa düşməlidirlər ki, Fransa dövləti üçün alətdirlər. Zaman gələcək bu maraqları həyata keçirmək üçün Ermənistan xalqına ehtiyac aradan qalxdıqda qurban verəcəkləri də ilk Ermənistan dövləti olacaq.Digər tərəfdən bu gün beynəlxalq hüquq prinsiplərindən danışan, özünü demokratiyanın beşiyi adlandıran, BMT prinsiplərinə zidd davranışları, dünyanın ayrı-ayrı bölgələri, eləcə də keçmiş Sovet respublikaları arasında agentura şəbəkəsini saxlaması, bu şəbəkə üzərindən bölgələrə təsir imkanlarını formalaşdırmağa cəhd göstərən Fransa üçün beynəlxalq dəyərlər çoxdan ayaqlar altına atılıb. Onlar üçün BMT prinsipləri demək olar ki, yalnız mübarizə alətidir. Fransa başa düşməlidir ki, Azərbaycanla dünyanın bir çox bölgələrində olduğu kimi artıq təhdid və təzyiq yolu ilə danışmaq mümkün deyil. Dünya artıq Fransa, Parisin ətrafında dönmür. Bölgəmizlə bağlı Fransa kimi dövlətlər, Makron kimi siyasətçilər davranışlarını seçməli, ehtiyatlı olmalıdırlar.Baş verənlər Fransa ilə yanaşı, Makron və onun komandasının səriştəsiz yanaşmasıdır. Çünki prezident dövlətini təmsil edən, ayrı-ayrı biznes subyektlərinin maraqları uğrunda mübarizə aparan seçilmiş şəxsdir. Çox təəssüf ki, Makronun indiki davranışında Fransa xalqı və dövlətinin maraqlarına xidmət edən addımları görmürük".

# Enerji siyasətimizin prioriteti: ”Yaşıl enerji”yə keçid...

***Xəbər verildiyi kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda deyilir: "Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verir. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri “Təmiz ətraf mühit və yaşıl artım ölkəsi” kimi müəyyən edilmişdir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır.***

Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür”. Sərəncamda bildirilir ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası “yaşıl enerji zonası” elan olunmuşdur. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir. Həmin ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur. “Yaşıl enerji” növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpa olunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir. Həmçinin vurğulanır ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Hazırda iqlim dəyişikliyi fonunda planetin enerjiyə olan tələbatının ətraf mühitə zərər vurmadan ödənilməsi ən aktual məsələlərdəndir. Bu səbəbdən də dünya ölkələri karbon emissiyalarının azaldılmasına qarşı mübarizə aparır, tükənməz mənbələrdən alınan enerjiyə üstünlük verir. ”Yaşıl enerji”yə keçid müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini özündə ehtiva edir. Texnologiyanın sürətli inkişafı və dünya ölkələrinin bu istiqamətdə müəyyənləşdirdikləri hədəflər isə ”yaşıl enerji” keçidini sürətləndirir. Ölkəmizin də enerji təhlükəsizliyinə, xüsusilə ”yaşıl enerji” siyasətinə keçiddə uzunmüddətli hədəfləri var. Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mühit kifayət qədər bərpaolunan enerji mənbələrinin potensialından istifadə etməyə şərait yaradır. Ölkəmizin bərpaolunan enerji potensialı 27 QVt həcmində dəyərləndirilir ki, bunun da böyük əksəriyyəti günəş və külək enerjisinin payına düşür. Bununla yanaşı, Dünya Bankının təşəbbüsü ilə aparılmış araşdırmalara əsasən Xəzər dənizinin Azərbaycana aid olan hissəsində 157 QVt həcmində dənizdə külək enerjisinin texniki potensialı müəyyən edilib. Bu göstərici ölkəmizdə ”yaşıl enerji”nin inkişafı üçün kifayət qədər böyük potensialın olduğunu deməyə əsas verir. Hazırda ”yaşıl enerji” ilə bağlı əsas layihə Zəngəzur dəhlizi vasitəsilə ötürücü şəbəkəmizin genişləndirilməsidir. Bu istiqamətdə Prezident İlham Əliyevin ötən il mayın 3-də ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində ”yaşıl enerji” zonasının yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncam imzalaması xüsusi əhəmiyyət kəsb edir.

Ümumilikdə, Azərbaycan işğaldan azad olunan ərazilərin yenidən qurulmasına enerji dayanıqlığı ilə bağlı müasir çağırışlar və qlobal iqlim dəyişikliyi probleminin həllinə dəstək müstəvisində yanaşır. Bunun reallaşdırılması üçün isə Qarabağ və Şərqi Zəngəzurun geniş potensial imkanları var. 10 min kvadratkilometr ərazini əhatə edən ”yaşıl enerji” zonası 7200 meqavat Günəş, 2000 meqavat külək enerjisi potensialına malikdir. Ölkəmizin daxili su ehtiyatlarının isə təxminən 25 faizi, yəni illik 2 milyard 560 milyon kubmetri bu ərazilərdə formalaşır. Günəş enerjisi potensialı Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlıda, külək enerjisi potensialı isə Laçın və Kəlbəcərin dağlıq ərazilərində müşahidə olunur. Aparılan təhlilə əsasən, işğaldan azad edilmiş ərazilərdə bütövlükdə, 10 min meqavata yaxın bərpaolunan külək və günəş elektrik enerjisinin istehsalı mümkündür. Regionun Tərtərçay, Bazarçay, Həkəriçay kimi əsas çaylarının və digər kiçik çayların da böyük hidroenerji potensialı var. Həmçinin, ilkin müşahidələrə əsasən, Kəlbəcərdə günlük 3093 kubmetr, Şuşada isə günlük 412 kubmetr termal su ehtiyatlarının mövcud olması ehtimal edilir. Sözügedən bölgələrdə artıq bir neçə su elektrik stansiyası inşa edilərək işə salınıb. Günəş, eləcə də külək stansiyalarının yaradılması ilə bağlı konkret planların da ardıcıllıqla həyata keçirilməsi diqqət mərkəzində saxlanılır. Tarix boyu mənəvi enerji mənbəyimiz olan Şuşa da artıq ”yaşıl enerji” zonası mərkəzinə çevrilir. Bu gün 4 min meqavatlıq külək və Günəş enerjisi layihələri üzrə əməkdaşlıq sənədinin imzalanması üçün məkan olaraq bu qədim mədəniyyət paytaxtımızın seçilməsi də təsadüfi deyil. Artıq ”yaşıl enerji” sahəsində imzalanan faktiki müqavilələr də var. BP şirkəti ilə birgə hazırlanmış plana əsasən, Cəbrayıl rayonunda 240 meqavat gücündə Günəş elektrik stansiyası tikiləcək.

Xatırladaq ki, 2020-ci ilin dekabr ayında Energetika Nazirliyi və ”Azərenerji” ASC ilə Səudiyyə Ərəbistanı Krallığının ”ACWA Power” şirkəti arasında qoyuluş gücü 240 MVt olan külək elektrik stansiyası layihəsi üzrə ”İnvestisiya müqaviləsi” imzalanıb. Müqavilənin imzalanması və layihənin icrası Azərbaycanda formalaşmış əlverişli biznes mühitinin bariz nümunəsi kimi dəyərləndirilə bilər. İlk dəfə xarici sərmayə əsaslı belə bir layihənin həyata keçirilməsi nəticəsində külək elektrik stansiyası, təxminən, ildə 1 milyard kVt/saat elektrik enerjisi istehsal edəcək, 220 milyon kub metr qazın sərbəstləşməsini təmin edəcək, atmosferə 400 min tondan artıq CO2 emissiyasının atılmasının qarşısını alacaqdır.



Onu da xatırladaq ki, BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il ölkəmizdə keçiriləcək. Bununla bağlı dekabrın 15-də Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirildi. Müşavirədə bildirildi ki, bu, ölkəmizdə keçiriləcək növbəti beynəlxalq tədbir olacaq. COP29-un Azərbaycanda keçirilməsinə dünya dövlətlərinin yekdilliklə razılıq verməsi isə ölkəmizin beynəlxalq nüfuzunun əyani göstəricisidir. Prezident İlham Əliyev tədbirin möhtəşəmliyi barədə demişdir: ”Ancaq, təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq”.

Məlumdur ki, COP29-da müzakirə ediləcək əsas məsələlər dünyada iqlim dəyişikliyinin və ətraf mühitin qorunması olacaq. Azərbaycan neft-qaz ölkəsi olsa da, ətraf mühitin qorunmasına töhfə verən ölkələrdəndir. Biz özümüzü ənənəvi enerji ilə təmin etmək imkanımız olduğu halda, ətraf mühitə ziyan vurmayan ”yaşıl enerji” ilə təmin etmək üçün əməli addımlar atırıq. Prezident İlham Əliyevin təşəbbüsü ilə işğaldan azad olunan ərazilərdə su, günəş və külək-elektrik stansiyaları tikilir və gələcəkdə bu sahədə görüləcək işlərin miqyasının daha da artacağı nəzərdə tutulur. Bu səbəbdən Bakıda və Azərbaycanın regionlarında yeni ”yaşıl enerji” stansiyalarının tikilməsi istiqamətində elmi-tədqiqat və layihələndirilmə işləri sürətləndirilib. Həmin müşavirədə bununla bağlı Prezident İlham Əliyev vurğulamışdır: ”Yaşıl enerji” növlərinin yaradılması və ”yaşıl enerji”nin dünya bazarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir”.

***S. Azadi***






# Bir ömrün həyat hekayəsi

*Həyatda Tanrının yaratdığı Varlıqlar yaşantılarının, mübarizələrlə dolu ömür yolunun bir hekayəsinin, romanının yaradıcısına çevrilirlər. Bu əsərlərin qəhrəmanları zaman ilə mücadilədə onilliklərin, qərinələrin təzadlı, ziddiyyətlərlə dolu bir dünyasını arxada qoyaraq, işıqlı və hamar yolda ömrün zirvəsində ötənlərin seyriçisi olurlar. Bərpa olunmayacaq zamanda çətin görünən məqamları aşıb, yola saldıqları illərə sakit nəzərlərlə tamaşa edir, dünən ilə bu gün arasında salınan körpüdə keçmişə qürurla dönüb baxırlar. Yüzlərlə, minlərlə oxucu, tamaşaçı bu ömür yolunun hər səhifəsini vərəqləyir, rejissor yozumunda verilən səhnələri maraqla izləyirlər.*

Ömrün ixtiyar çağında zəngin bir həyat yolunun müəllifi olan belə insanlarla həmsöhbət olub onların fikir düynasını dinlədikcə həyat yolunun işığı göz önündə canlanır. Müdrik insanlarla ömrünün ixtiyar çağında qarşı-qarşıya oturmaq qisməti sənə nəsib olduğunu anlayırsan və həqiqətən də həyat yolunda bir məktəb yaradan şəxslə. Bu, imzası tamaşaçı və oxuculara tanış olan və minlərə insanın məhəbbətini qazanan Marat Haqverdiyevdir. Bəs onun həyat yolu haradan, necə başlayıb?

Uzun illərdir ki, öz istedadı, gərgin əməyi ilə yaradıcılıq dünyasına bir-birindən fərqli əsərlər bəxş edən yazıçı, ssenarist, dramaturq, əməkdar mədəniyyət işçisi Marat Haqverdiyev mənalı və zəngin həyat yolu ilə özünəməxsus bir tərcümeyi-hal yazaraq, yaratdığı əsərləri ilə özünün zamanlara həkk olunacaq portretinin müəllifinə çevrilib:Marat Haqverdiyev portreti. Neçə onilliklərdə öz sənət dünyasını yaratmış yaradıcı ziyalı. Çətin bir sənəti özünə seçən qəhrəmanımız bu yolda yorulmadan çalışmış və yaşının bu çağında qələmini yerə qoymayaraq insan talelərini öz simalarında yaradaraq oxucuların ixtiyarına vermişdir. Ömürlərə bələd olmaq, onların dünyasına yaxın olmaq yaradıcı təxəyyülün məhsuludur.

## BİR ŞƏCƏRƏDƏN SORAQLAR

Böyük bir şəcərənin nümayəndəsi olan Marat Haqverdiyev mənən zəngin bir ailənin ocağında boya-başa çatıb. Belə ki, atası Azərbaycan və Türkmənistanın əməkdar artisti Xanlar Haqverdiyev və anası Cahan Əfruz (Dilanova) şairə-dramaturq olub. Xanlar Haqverdiyev 1959-cu ildə Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə iştirak etmiş, ”Sevil”, ”Koroğlu” operalarında çıxış etmişdir. Lirik-dramatik tenor səs tembrinə malik olan Xanlar Haqverdiyev Məcnun, İbn Salam (”Leyli və Məcnun” - Ü.Hacıbəyli), Kərəm (”Əsli və Kərəm” -Ü.Hacıbəyli), Şah İsmayıl, Əlyar (”Şah İsmayıl”, ”Nərgiz” - M.Maqomayev), Qərib (”Aşıq Qərib” - Z.Hacıbəyli), aşıq (”Şahsənəm” - R.Qlier) və s. partiyalar ifa etmişdir.



Anası Cahan Əfruz (Dilanova) şairə-dramaturq kimi tanınmışdır. ”Şeirlər”, ”Dağlar”, ”İki ana”, ”Sevgi sətirləri”, ”İki bayram” kitabları rus, ispan, türkmən, hind dillərinə tərcümə olunub. Cahan Əfruzun ”Qanqın böyük dalğası”, ”Tahirin aqibəti” və başqa əsərləri 70-ci illərdə Moskvada səhnələşdirilib. Onun ”İlham pərisi”, ”Gəldim ki, deyəm sevirəm” faciəsi sonralar Azərbaycan səhnəsində və başqa respublikaların səhnəsində dəfələrlə tamaşaya qoyulub.

## YOLLARA SALINAN İZLƏR

İki istedadlı sənətkarın əhatəsində boy atan Marat Haqverdiyev uşaqlıqdan rəssamlığa böyük maraq göstərsə də, orta məktəbi bitirərkən memar olmağa qərar verir. Arzusu onu 1956-cı ildə Azərbaycan Politexnik İnstitutuna gətirir və bu təhsil ocağının memarlıq fakültəsinə daxil olur. Amma incəsənətə olan marağını heç nə üstələyə bilməyir və institutun xalq çalğı alətləri ansamblı və estrada orkestrinin solisti kimi sovet respublikalarında qastrol səfərlərində olur. Ömrünün təxminən 40 ilini Mədəniyyət Nazirliyinin nəzdində Tarix və Mədəniyyət Abidələrinin Bərpası İdarəsində müxtəlif vəzifələrdə işləyib. Respublikanın tarix və mədəniyyət abidələrinin, o cümlədən Akademik Opera və Balet Teatrı, Rəşid Behbudov adına Mahnı Teatrı, muzeylər, məscidlər, mədrəsələr, qala və türbələrin bərpası ilə məşğul olub.

Ötən əsrin 70-ci illərində ədəbiyyata tərcüməçi kimi gələn Marat Haqverdiyev anasının əsərlərini - şeirlərini, poemalarını rus dilinə çevirir. Anası dünyasını dəyişəndən sonra belə qərara gəlir ki, onun yolunu davam etdirsin. Yaradıcı mühit əhatəsində ilk dram əsəri ”Ailədə məhkəmə” komediyasını yazır. ”Anam həmişə deyərdi ki, sən də əsərlər yaz. Mən yazırdım, amma deməyə utanırdım... O bunu heç vaxt bilmədi”- deyir Marat Haqverdiyev. Beləliklə, ilk dram əsəri Lənkəran Dövlət Dram Teatrında Baba Rzayevin quruluşunda səhnəyə qoyulur. Bir il sonra Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rejissor Mərahim Fərzəlibəyov Marat Haqverdiyevin ”Məhəbbət, şeytan və lambada”, ardınca ”Məşuqələr” pyesini tamaşaya qoyur. Hər iki əsər teatr aləmində böyük rezonans doğurur. 1992-ci ildə ”Ah, qadınlar, qadınlar” komediyasını yazıb xalq artisti Həsənağa Turabova təqdim edir və Dövlət Akademik Milli Dram Teatrının səhnəsində Mərahim Fərzəlibəyov bu əsəri tamaşaya qoyur. Çox keçmir ki, bir il sonra ”Qısqanc ürəklər” komediyası teatrda Mərahim Fərzəlibəyovun quruluşunda səhnələşdirilir. Komediya rejissorun yozumunda uğurlu səhnə həyatını yaşayır. Uğurlu yolda müəllifin ”Fədakarlıq”, ”Sənsiz yaşaya bilmərəm”, ”Məhəbbət əzabları”, ”Məhəbbət yaşa baxmır” və başqa pyesləri bir-birinin ardınca müxtəlif teatrların səhnəsində tamaşaya qoyulur.

## AZƏRBAYCANDAN TÜRKİYƏ SƏHNƏSİNƏ

Çoxşaxəli yaradıcılıq imkanlarına malik olan yazıçı dram əsərləri ilə yanaşı, maraqlı ssenarilərin də müəllifidir. Lütfü Məmmədbəyov yazıçının ssenarisi əsasında ”Səninlə və sənsiz” bədii televiziya filmini çəkib. Film Azərbaycan Dövlət Televiziyası ilə dəfələrlə nümayiş olunub. ”Səni gözləyirəm” lirik əsərini də Lütfü Məmmədbəyov ekranlaşdırıb.

Vurğulayaq ki, müəllifin ”Qısqanc ürəklər” komediyası qardaş Türkiyədə İstanbul şəhəri Sarıyer bələdiyyə teatrının yaradıcı heyəti əsəri səhnəyə qoyur. 2000-ci ildə ”Qısqanc ürəklər” tamaşanın premyerası ”Çırağan” sarayında keçirilir. Bu sarayda adətən, dövlət tədbirləri keçirilir, amma o zaman hörmət əlaməti olaraq tamaşanın premyerası orada təşkil olunur. Əsər belə uğur qazanandan sonra yazıçıdan başqa bir əsər istəyirlər. ”Ah, qadınlar, qadınlar” əsərini təqdim edir və hər iki əsər Türkiyənin bir çox teatrlarında - İstanbulun Çemberlitaş teatrı, Sarıyer bələdiyyə teatrı, Fatih Universitetinin teatrında səhnələşdirilir.

## TARİXİ ŞƏXSİYYƏTİN ƏVƏZSİZ XİDMƏTLƏRİ AZƏRBAYCAN SƏHNƏSİNDƏ

Marat Haqverdiyev 1993-cü ildə yazdığı ”Qarabağ şikəstəsi” ssenarisində böyük siyasətçi Ulu Öndər Heydər Əliyevin Azərbaycanın ağır günündə hakimiyyətə qayıdışını, ölkənin xilası naminə tarixi xidmətlərini əks etdirib. Bu ssenari əsasında Mərahim Fərzəlibəyov ikiseriyalı bədii televiziya filmi çəkib. Onun Ümummilli Lider Heydər Əliyev haqqında ikinci əsəri ”Fədakarlıq” adlanır. Müəllifin ssenarisi əsasında ”Fədakarlıq” bədii televiziya filmi çəkilir. Sonra müəllif bu ssenarinin dram variantını qələmə alır və əsər Sumqayıt Dövlət Dram Teatrında səhnələşdirilir, premyerası isə Akademik Milli Dram Teatrında uğurla keçirilir. Marat Haqverdiyev ”Üç dəniz əfsanəsi” əsərini isə yaradıcılığının son zirvəsi adlandırır. Ulu Öndər Heydər Əliyevin 90 illik yubileyinə həsr edilmiş əsər Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisindən bəhs edir. Marat Haqverdiyevin üçüncü dəfə Dahi Şəxsiyyət Heydər Əliyevlə bağlı mövzuya müraciət etməsinin səbəbi odur ki, Ulu Öndərin adını daşıyan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi Azərbaycan tarixində misli görünməmiş nailiyyət idi. Ona görə də bu layihənin tarixi-siyasi qiymətini nəzərə alaraq, bədii həllini verməyə çalışır.

Müəllif ”Üç dəniz əfsanəsi” dramını beş ilə yazır. Bu əsər Mədəniyyət və Turizm Nazirliyinin 2013-cü il üçün təsdiq etdiyi repertuar planına salınır və əsərin hazırlanması Gəncə Dövlət Dram Teatrına həvalə olunur.

Marat Haqverdiyev Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar olaraq ”Üç dəniz əfsanəsi” əsəri üzərində əsaslı şəkildə işləyib onu daha mükəmməl ekran və səhnə əsərinə çevirir. Azərbaycanın yeni neft strategiyası qüdrətli dövlət rəhbəri Heydər Əliyevin böyük nüfuzu və siyasi iradəsi sayəsində reallığa çevrilir. Dünyada anoloqu olmayan Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin layihsinin gerçəkləşməsi yolunda yaranan ciddi mane və problemlərin, terror və təxribatların aradan götürülməsi, müqəddəs dinimizə, milli-mənəvi dəyərlərimizə göstərilən daimi diqqət və qayğı, ölkəmizdə hökm sürən tolerantlıq, eləcə də çoxesrlik tarixində özünün ən uğurlu və parlaq dövrünü yaşayan azad və müstəqil Azərbaycan həqiqətləri - Prezident İlham Əliyev və Birinci vitse-Prezident Mehriban Əliyevanın rəhbərliyi ilə ölkəmizin bütün həyati əhəmiyyətli sahələrinin inkişafında qazandığı misilsiz nailiyyətlər, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən işğalda olan torpaqlarımızın azad olunması, Azərbaycan - Türkiyə dostluğu və qardaşlığı ”Üç dəniz əfsanəsi” əsərinin yenidən əsaslı surətdə işlənmiş mövzusunu təşkil edir. Əsər yenidən çapdan çıxır: ”Əsrin möcüzəsi və ya üç dəniz əfsanəsi”.

Atası Xanlar Haqverdiyevin həmişə ona dediyi fikri vurğulamaq yerinə düşərdi: ”Sənətə gəlirsənsə, yaxşıların yaxşısı olmalısan”. Belə də oldu. Onun 85 illik ömür yolunun həyat hekayəsindən qısa da olsa söz açdıq. O, uğurlu həyatında yaxşıların yaxşısı oldu və özünəməxsus keyfiyyət və bacarığı ilə bir salnamə yaratdı: Barat Haqverdiyev Bu ad və soyada teatr afişalarında nə vaxt rast gəliriksə, qeyri-ixtiyari olaraq həmin əsərlərin tamaşaçısı olmağa tələsirik.

***Zümrüd BAYRAMOVA***

# Boykot riyakarlığın və zəifliyin təsdiqidir

ANALİZ

**_7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərinə hazırlıq yüksək səviyyədə, əhalinin fəallığı ilə aparılır. Aktiv müzakirələr, sosial şəbəkələr üzərindən paylaşmaların ardıcıl xarakter daşıması onu təsdiq edir ki, xalq taleyinə biganə deyil._**

Həm də hər bir kəs demokratik seçki mühitinə fəallığı, özlərinin təklif və ideyaları ilə töhvələr verməyə çalışırlar. Ona görə də, zəfər seçkisi adlandırılan 7 fevral 2024-cü il prezident seçkiləri müstəqil Azərbaycanın tarixində ən demokratik, yüksək seçici fəallığı ilə keçiriləcək seçkilər olacaq. Belə bir ictimai fəallıq fonunda xalqdan ayrı düşən pozucu qüvvələr əhəmiyyətsiz məsələlər ətrafında hay-küy qaldırılıb, ölkədəki demokratik mühitə zərər vurmağa çalışırlar. Hətta AXCP, Müsavat, Milli Şura kimi dağıdıcı qurumlar və onların baş bilənləri seçkiləri pozmaq xülyası ilə cəmiyyətə təhdid mesajları ünvanlayırlar. Sosial bazadan məhrum olan və ötən illər ərzində bütün etibar limitini itirmiş radikallar öz zəifliyini etiraf etmək əvəzinə növbəti dəfə təxribat və cəmiyyətdə ixtilaf yaratmaq yolunu seçib. Əli Kərimli Cəmil Həsənli cütlüyü açıq tezislərlə çıxış edərək seçkilərin təbliğat təşviqat dövründə şəhərlərdə icazəsiz aksiyalar keçirəcəklərini bəyan edirlər. Sual yaranır, niyə icazəsiz və nəyə görə, seçkilərin təbliğat - təşviqat dövründə? Cavabı aydındır, dağıdıcı ünsürlər icazəsiz aksiyalarla asayişin pozulmasının qarşısının alınmasına vəzifəli olan polislə qarşıdurmalar yaratmaqdır. Digər tərəfdən məlumdur ki, seçkilərin təbliğat-təşviqat dövründə bir sıra beynəlxalq təşkilatlardan, ayrı-ayrı ölkələrdən Azərbaycana müşahidəçilər gələcək, jurnalistlər seçkilərin gedişini izləmək üçün ölkəmizə səfərlər edəcəklər, dağıdıcı ünsürlər bundan istifadə etməklə diqqəti özlərinə cəlb etməyə çalışacaq. Yəni, qısa müddətli də olsa meydan dövrünün ab-havasını təkrarlamaqla ucuz siyasi xal qazanmağa ümid edəcəklər. Təbii ki, planlarını xarici maraqlı dairələrin istək və tələblərinə uyğun reallaşdıra bilsələr başları sığallanıb, cibləri maddi yardımla doldurulacaq.

### Əli Kərimli seçkiləri qarşıdurmalar yaratmaq üçün fürsət bilir

Dağıdıcı müxalifətin məhz növbədənkənar prezident seçkilərinin keçirilməsi barədə qərarın elan olunmasından sonra fəallaşması onu təsdiq edir ki, onlar ölkədəki sabitliyə xələl gətirmək üçün sərt və qətiyyətli tapşırıqlar alıblar. Çünki son vaxtlara qədər Milli Şura, AXCP və Müsavat hin damından çıxma-



yan xəstə toyuq kimi ofislərində nərd, domino oynamaqla günlərini keçirir, aradabir Sevinc Osmanqızının TV-sinə dedi-qodu xarakterli açıqlamalar verməklə işlərini bitmiş hesab edirdilər. Elə ki, seçkilərin keçirilməsi barədə qərar verildi dağıdıcı müxaliflər meydana çıxıb, təxribat törədəcəkləri haqında açıq mətnlə çıxışlar etməyə başladılar. Yəni əsas fəaliyyətləri və hədəfləri cəmiyyətdə qarışıqlıq yaratmaq və əhalinin seçki fəallığına zərər vurmaq. Bu da onu göstərir ki, 30 ildən çoxdur ki, siyasətdə olmalarına baxmayaq, hər hansı formada keyfiyyət dəyişikliyinə nail ola bilməyiblər. Yenə də meydan təfəkkürü ilə yaşayır və fəaliyyət göstərirlər. Cəmiyyətin inkişafına və milli həmrəyliyə zərər verə biləcək əməllər bütün dövrlərdə onların fəaliyyətini xarakterizə edən əsas keyfiyyətlərdən olublar. Xalqın uğurlarını həzm edə bilmədikləri kimi, milli problemlərə də biganədirlər. Fikir verin, Qarabağı işğaldan azad edib, suverenliyimiz bərpa etməyimizə dağıdıcı müxalifət qısqanclıqla yanaşır. Müəyyən hallarda erməni revanşistləri ilə eyni mövqedən çıxış etməklə onlarla həmrəylik nümayiş etdirirlər.

### Əli Kərimli və Cəmil Həsənli fransız casus şəbəkəsinin mövcudluğundan məlumatlı olublar

44 günlük Vətən Müharibəsindən və ondan sonra baş verənlərə AXCP, Müsavat və Milli Şura etinasız yanaşdılar. Bir dəfə də olsun siyasi, ictimai təşkilatlarla bir araya gələrək, erməni terrorçularını və onların arxasında dayananları ittiham edən mövqe ortaya qoymadılar. Əksinə açıq şəkildə xalqın qələbə sevincinə acılıq qatmağa çalışdılar. Uzağa getməyək, bu günlər Əli Kərimli İnternet TV-lərin birinə verdiyi açıqlamasında deyir, 44 günlük Vətən Müharibəsində qazanılan qələbə Sarkisyan-Koçaryan cütlüyünün Qarabağı və ətraf rayonları işğal etmələrindən artıq ola bilməz. Bununla yanaşı Ə.Kərimli beynəlxalq təşkilatlardan Azərbaycana sanksiyalar tətbiq edilməsini xahiş edir. Bir sözlə, Ə.Kərimli birbaşa Koçaryan –Sarkisyan cütlüyünün qazanına işləyən fikirlər çıxışlar edir. Ciddi araşdırmalar aparılsa Ə.Kərimlinin və C.Həsənlinin bu günlər ifşa edilən Fransa cəsus şəbəkəsinin əməkdaşları olduğu üzə çıxar. Əslində şübhə edilmir ki, Ə.Kərimli və C.Həsənli ABŞ-ın və ya Avropanın hansısa agentura şəbəkəsinin cəsusları deyillər. Əgər agent deyillərsə, sübut etsinlər, dəlillər ortaya qoysunlar. Niyə ölkədə böyük rezonans doğuran Fransa casus şəbəkəsinin ifşasına Ə.Kərimli və C.Həsnli münasibət bilmirlər. Necə ola bilər ki, Azərbaycanın ucqar dağ kəndində baş verən xırda məişət məsələsini qabardıb, onun ətrafında hay-küy qaldıra bilirlər, ancaq fransız casus şəbəkəsinin ifşa edilməsindən özlərini xəbərsiz kimi aparırlar. Gözlərinin içinə qədər yalan danışır və özlərini məlumatsız kimi aparırlar. Hər şeydən məlumatlıdılar. Hətta aylar öncədən ölkəmizdə fəaliyyət göstərən fransız casus şəbəkəsinin ifşa olunacağını bilirdilər. Dərk edirdilər ki, kifayət qədər peşəkar olan, təcrübəyə malik Azərbaycan hüquq-mühafizə orqanları çox asanlıqla casus şəbəkəsinin ifşasına nail olacaq, elə də oldu. Sadəcə, Ə.Kərimli, C.Həsənli və digərləri ənənəvi metodlarından istifadə edərək özlərini baş verənlərdən məlumatsız kimi göstərirlər. Əslində, lal və kar olmaları gözlənilləndir. Axı maddi və mənəvi dəstəyi xaricdəki mərkəzləşmiş şəbəkədən alırlar. Təlimatlar, planlarda mərkəzi şəbəkə vasitəsi ilə onlara çatdırılır. Bu baxımdan tam qətiyyətlə demək olar ki, Ə.Kərimli və C,Həsənli Azərbaycana qarşı revanşist çıxışlar edən, beynəlxalq təşkilatlardan ölkəmizə sanksiyaların tətbiq edilməsini tələb edən, yenidən müharibə ocağının yaranması çağırışını edən körpə qatilləri Koçaryan və Sarkisyandan heç nə ilə fərqlənmirlər. Belə demək mümkünsə eyni sifətə və üzə malik məxluqlardır.

***İLHAM ƏLİYEV***

# İcbari Tibbi Sığorta: müayinə gələn ilə qaldı



Mətanət Məmmədova

**_Allah şahiddir ki, biz həmişə düzü düz, əyrini əyri görüb yazmışıq və bu gün də o cür davam etməkdəyik. Baxmayaraq ki, İcbari Tibbi Sığorta cəmi 5 ildir yaradılmışdır və hələlik 3 ildir fəaliyyət göstərir, həmişə insanların bu sahədə maariflənməsində jurnalist olaraq əlimizdən gələni etmişik. Lakin elə nüanslar vardır ki, onları deməmək də mümkün deyil. Çünki bunlar səhiyyə sistemində mümkün olmayacaq hallardır. Dünən Mərkəzi Neftçilər xəstəxanasında mənim və mənim kimi neçə-neçə insanın üzləşdiyi vəziyyət kimi..._**

Deməli, müayinə üçün adıçəkilən xəstəxanaya müraciət etmişdim. Öncə bütün prosedur yerli-yerində getdi. Həkim qan analizləri istədi və məni USM-ə göndərdi və dedi ki, bu müayinələrin nəticələri ilə birlikdə sabah gələrsən. Mən də USM olunmaq üçün qeydiyyata yaxınlaşdım. Burada mənə nə desələr yaxşıdır, sənin müayinəni 2024-cü ilin yanvar ayının 19-na yazırıq. Vallah, birinci nə deyəcəyimi bilmədim. Fikirləşdim ki, yəqin nə isə səhv edirlər, nəyi isə qarışdırırlar. Buna görə də sual verməli oldum və ikinci dəfə də eyni cavabı aldım.

Dedim axı həkim mənə sabah nəticələrlə, gəl, deyib. Qeydiyyatda əyləşən xanım "bir xeyli qan analizləriniz var, siz hələ bir onları verin", -dedi. Dedim indi gedib verəcəm də, axı USM çox uzun çəkir. Bəs o vaxtadək bəlkə elə mən bu xəstəlikdən öləcəyəm. Xanımsa söylədi ki, siz, ölənə oxşamırsınız.

Bir anda əsəbiləşmək istədim, lakin elə bir anlığa da qərara gəldim ki, buradakı vəziyyət əsəbiləşməkdən çox, gülməlidir, ona görə də xanıma təbəssümlə "xarici görünüş bəzən düşündüyünüz deyil" dedim. Mən belə söyləyəndə qeydiyyatın qarşısında dayanan bir neçə xəstə də dedi ki, bəs bizim USM-i də elə uzaq zamana yazıblar. Bu nə deməkdir, anlamırıq.

Beləliklə, gedib qan analizlərini verdim və kor-peşman qayıtdım. Yolboyu düşünürdüm ki, dövlətimiz səhiyyə sistemində bu qədər islahat aparır, ölkədə insanların sağlamlığının qeydinə bu qədər qayğı göstərilir, bəs görəsən aid qurumlar işlərini nə üçün dövlət siyasətinə müvafiq şəkildə qura bilmirlər.

Bəlkə elə o qeydiyyatın qarşısındakı insanların birinin vəziyyəti son həddə idi. Bəlkə oradakı xəstələrdən hansısa biri gələn il yanvar ayının 20-dək dünyasını dəyişəcəkdi. Lakin bu günlər müdaxilə edilərdisə, hələ uzun illər yaşaya bilər. Müayinənin 20-25 gün uzadılmas, insanların sağlamlığı ilə oynamaq deyilmi?

Elə onlardan biri kimi, mən ürək problemi ilə müraciət etmişdim. Qeydiyyatda oturan xanın da sistemə baxan kimi müraciəti görür. Bəs belə olan halda ürək problemi yaşayan bir insanın müayinəsi necə yanvarın 19-na təyin edilir?

Yəni qeydiyyatçı xanımda heç bir günah yoxdur, bunu yaxşı anlayırıq. Ona tapşırıq belə verilib. Elə ona tapşırıq verənlərə üz tutub demək istərdik ki, insanların taleyi ilə bu cür oynamayın. Dövlətimiz İcbari Tibbi Sığortanı məhz vətəndaşları üçün yaradıb. Bu səhiyyə xidməti növünün əsasında onların sağlamlığı, xəstəliklərinin qarşısının vaxtında alınması, ölüm risklərinin azaldılması dayanır. Bəs belə olan halda nə üçün İcbari Tibbi Sığorta siyahısına daxil olan xəstəxanalarda bu kimi hallarla qarşılaşırıq. Bu qarşılaşmanın isə bir adı var: işi düzgün şəkildə qura bilməmək. Əks təqdirdə bu il müraciət edənin müayinəsi gələn ilə qala bilməz. Ya da bu, xəstəyə açıq şəkildə, get, USM-i özəl xəstəxanalarda etdir, deməkdir. Çarəsiz qalan xəstə isə təbii ki, ölməmək üçün birtəhər gedəcək. Lakin mən heç yerə getməyəcəyəm...

Beləliklə, gözləyək gələn il yanvar ayının 19-nu, görək həyat bizə nə vəd edir: öləcəyik, yoxsa qalacağıq? Bu yazını ona görə yazdım ki, əgər öləcəyəmsə, TƏBİB öz işini daha mükəmməl şəkildə həyata keçirməyi, başqalarının da həyatını itirməsinin qarşısını almaq üçün müayinə məsələsini bir daha nəzərdən keçirsin. Yox, əgər ölməyib qalsam, gələn il yanvarın 19-da hökmən həmin xəstəxanada müayinədən keçib, ürək problemini yaradan səbəblərin ortaya çıxmasına nail olacağam. Belə yerdə nə deyərlər, inşallah, yaşayarıq, görərik.

# "Sürücülük mədəniyyəti anlayışı var"

MÜNASİBƏT

"Bütün sürücülərə bunu şamil etmək düzgün deyil, amma Azərbaycanda sürücülərin bir çox hallarda emosional vəziyyəti çox gərgindirsə, sükan arxasında bunu büruzə verirlər. Sürət həddini aşmaq, lazımsız yerdə siqnal vermək və s. bu göstəricilərə daxildir. Bəziləri hətta deyirlər ki, bununla stress atıram. Amma düşünmürlər ki, qarşıdakı sürücü təcrübəsiz ola bilər. Belə hallar nəzərə alınmalıdır. Sürücülük mədəniyyəti anlayışı var. Bu, insanın təbiətindən də asılıdır. O insan ki cəmiyyətdə, ailədə, işində müəyyən vaxt etika qaydalarına riayət edir, təbii ki, belə insan sükan arxasında da özünü idarə etməyi bacaracaq". Bu sözləri SİA-ya açıqlamasında psixoloq Aygün Ağabalayeva deyib.

Onun sözlərinə görə, Avropada sürücülər arasında aparılan sorğu nəticəsində sürücülərin 7 psixotipi müəyyən olunub: "Bunlardan biri ekspert psixotipidir. Bu psixotiplər başqa sürücüləri bacarıqsız bilirlər, onları



tənqid etməyə çalışırlar, eyni zamanda birbaşa kontaktdan qaçırlar. Müəllim psixotipi isə əmin olmalıdır ki, başqa sürücülər öz səhvlərini başa düşürlər, buna görə də onlara öyrətməlidir. Qalib psixotipi isə mütləq şəkildə bütün sürücüləri ötüb keçmək istəyir. Kimsə ona maneə olursa, bu psixotip qıcıqlanır. Qalib psixotipi kimsə ötürsə, o, belə halda sürəti ha da artırır".

Psixoloq bildirib ki, cəza verən psixotiplər kimsə səhv edəndə hətta fiziki olaraq onu cəzalandırmağa çalışırlar: "Avtomobildən düşür, konflikt yaranır, qarşı tərəfi cəzalandırmağa çalışır. Filosof psixotipi digər sürücülərin səhvlərinə çox sakit yanaşır. Onlara səhvlərini məntiqi baxımdan izah etməyə çalışır. Bu tip sürücülər avtomobil sürərkən hislərini idarə etməyi bacarırlar. Ehtiyatlı psixotiplər digər sürücülərin səhvlərinə qərəzsiz yanaşırlar. Sanki bu sürücülər bütün fövqəladə halların mənbəyi kimi qarşıdakı sürücüləri qəbul edirlər. Qayğısız psixotip isə konfliktli situasiyada fikrini yayındırmaq, tıxacdakı gərginlikdən uzaqlaşmaq üçün musiqiyə qulaq asır. Həmin an mütləq özünə bir məşğuliyyət tapır. Belə halda sükan arxasında yaranan qıcığı özündən uzaqlaşdıra bilir. Özünü idarə edə, emosiyalarını kontrol edə bilməyən insanlar sükan arxasında da özlərini idarə edə bilmirlər. Bəziləri hətta xoşagəlməz hallarda etikadan kənar sözlərdən istifadə edirlər. Siqnalı daha möhkəm basırlar. Təbii ki, bunu hər kəs etmir. Hər sahədə mədəniyyət gözlənildiyi kimi sürücülük mədəniyyətinin də gözlənilməsi vacibdir. Bütün bunlar bir-birinə bağlı məsələlərdir".

***Ləman Sərraf***

# “Qərbin və İrəvanın əngəlinə baxmayaraq Zəngəzur dəhlizi açılacaq”

## “Dəhliz Rusiyanın dəstəyi ilə fəaliyyət göstərəcək”

### Rusiyalı ekspertlərin şərhi







***Rusiya Ermənistanda-Qafan şəhərində-ikinci baş konsulluq açmağı planlaşdırır. Bu barədə ötən gün Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Yevgeni İvanov Rusiya mətbuatına məlumat verib. Maraqlıdır ki, bu, Moskva ilə İrəvan arasında münasibətlərin açıq şəkildə pisləşməsi və Ermənistan daxilində anti-Rusiya əhval-ruhiyyəsinin güclənməsi fonunda baş verir.***

Görünür, yeni diplomatik nümayəndəliyin açılması Kremlin erməni tərəfini blokdan çıxarmağa çağırdığı Zəngəzur dəhlizi məsələsi ilə müəyyən mənada bağlıdır. Yeri gəlmişkən, onu da əlavə etmək yerinə düşər ki, bir ilə yaxındır ki, Qafanda digər regional gücün - İranın Baş Konsulluğu fəaliyyət göstərir.

Rusiyalı politoloqlar vəziyyəti necə qiymətləndirirlər? Niyə Moskva Gümrüdəki Baş Konsulluqdan əlavə Qafanda başqa konsulluq açmağa qərar verdi? Burada hansı məqsəd və vəzifələr qoyulub?

**Rusiyalı politoloq, “Arxont” jurnalının baş redaktoru, Etnik və Beynəlxalq Araşdırmalar Mərkəzinin prezidenti Anton Bredixin**in fikrincə, Rusiya Ermənistanda yeni baş konsulluq açırsa, deməli, buna tələbat var. Caliber.Az-la söhbətində o qeyd edib ki, buna görə də Ermənistan ərazisində olan Rusiya vətəndaşlarından bununla bağlı müraciətlər olur.

“Bunlar Rusiyadan köçənlər deyil, dövlətimizin müəyyən tapşırıqlarını yerinə yetirən, xüsusən də regionun iqtisadi inkişafında, humanitar missiyalarda, nəqliyyat magistrallarının tikintisində iştirak edən insanlardır. Və 11, Rusiya kifayət qədər açıq şəkildə bəyan edir ki, Ermənistanı tərk etməyəcək”,- A.Bredixin aydınlıq gətirib.

Ekspertin sözlərinə görə, Rusiya orada hərbi mövcudluğunu azaltmaq niyyətində deyil, əksinə, onu genişləndirəcək. Və belə bir addım Ermənistanda hər kəsə, xüsusən də Rusiyanın rəqiblərinə siqnal kimi şərh edilməlidir.

“Beləliklə, hesab edirəm ki, Qafandakı Baş Konsulluqdan əlavə, bu sahədə digər əlaqəli layihələr həyata keçiriləcək, müvafiq orqanın-Rossotrudniçestvo-nun damı altında “Rus evləri” açılacaq, yeni investisiya müəssisələri yaratmaq olar, o cümlədən Zəngəzur dəhlizinin həyata keçirilməsi ilə bağlı olanlar və hətta Rusiyanın Ermənistandakı hərbi mövcudluğunu genişləndirmək. Beləliklə, hələ qarşıda daha çox şey var. Düşünürəm ki, 2024-cü ildə biz Rusiyanın xarici siyasəti baxımından çox maraqlı xəbərlər görəcəyik”,- A.Bredixin əmindir.

Öz növbəsində rusiyalı politoloq, **PolitRUS ekspert analitik şəbəkəsinin təsisçisi Vitali Arkov**un qeyd etdiyi kimi, Rusiya Xarici İşlər Nazirliyinin bəyanatına görə, Qafan şəhərində yeni baş konsulluq Rusiya-Ermənistan münasibətlərinin daha da möhkəmlənməsinə töhfə verəcək və regionda vəziyyətin sabitləşdirilməsi, eləcə də mədəni-humanitar, ticarət-iqtisadi və regionlararası əməkdaşlığın genişləndirilməsi. Və bu, onun fikrincə, sırf protokol ifadələri deyil, əslində gündəmdə olan məqsəd və vəzifələrdir. Xüsusən də regionda vəziyyətin sabitləşməsi baxımından.

“Xatırladıram ki, Rusiyanın Ermənistanda əlavə baş konsulluğunun açılması barədə qərar Rusiya prezidenti Vladimir Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında şəxsi görüş zamanı qəbul edilib. Və indi Moskva ilə İrəvan arasında müəyyən məsələlərdə münasibətlər nə qədər gərgin olsa da, cənab Paşinyanın özü nə qədər “xüsusi” olsa da, o, “qırmızı bayraqları” keçməməyə və şəxsən Putinlə müzakirə olunanları həyata keçirməyə çalışır. Ən azı hələlik”, - rusiyalı politoloq vurğulayıb.

Onun fikrincə, Qafanda yeni baş konsulluğun açılmasının bir neçə səbəbi var.

“Bu, həm də qondarma qurumların nümayəndələrinin fəallığının xeyli artmasıdır. “Kollektiv Qərb” - əsasən ABŞ və Fransa erməni cəmiyyətində süni rusofobiyanın yaradılmasına cəhd edir. Onların fəallığı Ermənistanın cənubunda da nəzərə çarpır ki, bu da heç də təsadüfi deyil. Əvvəllər müzakirə olunub ki, Qərb dövlətləri Ermənistanı İrana qarşı mümkün hərbi əməliyyat üçün tramplin kimi nəzərdən keçirir. Hazırda bu qüvvələrin Ermənistan ərazisindən istifadə edərək Rusiya ilə İran arasında konfidensial tərəfdaşlığı pozması vacibdir.







Fransanın Ermənistan ərazisindən keçməklə Azərbaycanın əsas hissəsi ilə Naxçıvan hissəsi arasında quru nəqliyyat əlaqələrini bərpa etmək planlarının qarşısını almaq üçün səyləri də göz qabağındadır. Paris başa düşür ki, bu, həm Azərbaycan və Türkiyənin mövqelərini gücləndirəcək, həm də Şimal-Cənub multimodal beynəlxalq nəqliyyat dəhlizinin əlavə “qolu” üçün platforma yaradacaq, həmçinin Ermənistan iqtisadiyyatına əlavə ciddi imkanlar verəcək və onun Amerika və Fransanın “kasıb qohumu” kimi onlardan asılılığını azaldacaq”- politoloq əmindir.

V.Arkov diqqətə çatdırır ki, hətta Yelisey sarayının diktəsi ilə də rəsmi İrəvan bu dəhlizdən formal olaraq imtina etmir-xüsusən də Bakının onun “Zəngəzur” dəhlizi adlandırmasına baxmayaraq. Adın necə olması vacib deyil, əsas odur ki, bu dəhliz işləsin.

“Hələlik biz üç tərəfin əvvəllər əldə etdiyi və imzaladığı razılaşmalara əsaslanırıq, ona əsasən müzakirə olunan dəhliz Rusiyanın dəstəyi ilə fəaliyyət göstərəcək ki, bu da Ermənistan cəmiyyətində Azərbaycanla münasibətlərdə qeyri-sabitlik şəraitində həddindən artıq radikal hərəkətlərin qarşısını almağa imkan verəcək. Və bu baxımdan Ermənistanın Sünik (Zəngəzur) bölgəsində Rusiyanın daha bir Baş Konsulluğunun yaranması başa düşüləndir və məntiqlidir. Eləcə də dəhlizin təhlükəsizliyini təmin edəcək Rusiya Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının orda yerləşdirilməsi–təkcə müxtəlif erməni revanşistlərindən deyil, həm də üçüncü tərəfin göstərişi ilə- Fransanın və ya ABŞ-ın kəşfiyyat xidmətlərinin Cənubi Qafqazda vəziyyəti yenidən destabilləşdirmək məqsədi ilə ediləcəyi istisna olunmayan diversant qüvvələrdən müdafiəni təmin edəcək”,- deyə V.Arkov yekunlaşdırıb.




***Tərcümə - Elçin Bayramlı***

# Qarabağda biomüxtəliflik: Necə bərpa edilməli?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.***



*30 ildə Qarabağın bütün canlı növlərinə qarşı amansız münasibət göstərilib, biomüxtəliflik məhv edilib*

***Biomüxtəliflik bir ekosistemdə və ya Yer kürəsində rast gəlinən müxtəlif həyat formalarıdır. İnsanların yaşaya bilmələri üçün yaşadıqları mühitin təmiz su və havası, münbit torpaqları, qida maddələri və digər ehtiyaclarını ödəmək üçün istifadə edə biləcəkləri müxtəlif materiallar olmalıdır. Həyat üçün zəruri olan maddələr və şərait, ətraf mühitin və bakteriyaların, göbələklərin, bitkilərin və heyvanların sayəsində təmin edilir. Bütün bu canlılara biomüxtəliflik deyilir.***

Bir ekosistemdə biomüxtəliflik artdıqca həmin mühitin ekoloji keyfiyyəti də artır. Bu artım yalnız bioloji müxtəlifliyi təşkil edən növlər arasında balanslaşdırılmış qarşılıqlı əlaqə olduqda etibarlıdır. Buna görə də, biomüxtəliflik artdıqca ekosistemlərdə maddə dövranı və enerji axını daha effektiv olur. Əksinə, bir ekosistemdə biomüxtəliflik azaldıqda, ekosistem xidmətlərində azalma olur. Məsələn, ilan öz ekosistemindəki siçan və qurbağa kimi növlərdən qida olaraq istifadə edir. Beləliklə, siçan və qurbağa populyasiyalarının həddindən artıq artmasının qarşısı alınır. Nəticədə, siçan və qurbağalarla eyni qidanı paylaşan digər heyvanların qida maddələrindən faydalanmasına icazə verilir.



### Dünya biomüxtəlifliyi qorumağa çağırır

Biomüxtəliflik üzrə Beynəlxalq Müqavilə 1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Yer Sammitində 150 ölkə tərəfindən imzalanıb. 4 iyul 1993-cü il tarixinədək imzaya açıq saxlanılan müqaviləda iştirak edən ölkələrin sayı bu tarixdən etibarən 168-ə yüksəldi. 29 dekabr 1993-cü ildə Birləşmiş Baş Assambleyada müzakirə edildikdən sonra qüvvəyə mindi.

Müqavilə davamlı inkişaf və inkişaf konsepsiyalarına xüsusi diqqət yetirir. Heyvanların, bitkilərin, mikroorqanizmlərin və onların ekosistemlərinin müxtəlifliyindən kənara çıxan saziş insanların qida, təhlükəsizlik, sığınacaq, dərman, sağlam və təmiz ətraf mühitdə yaşamaq hüquqlarını nəzərə alaraq davamlılığı daha geniş perspektivdən nəzərdən keçirir.

Mütəxəssislər vurğulayırlar ki, saziş qüvvəyə mindikdən sonra kifayət qədər irəliləyiş əldə olunmayıb və biomüxtəlifliyin itirilməsi davam edir. Son 50 ildə quruda yaşayan canlı növlərinin populyasiyalarında 38 faiz, dəniz növlərinin populyasiyalarında isə 36 faiz azalma müşahidə olunub. Bununla belə, bu tendensiyanı geri qaytarmaq imkanı var. Növlərin mühafizəsi proqramları ilə birlikdə qorunan ərazilər sürətlə genişləndirilməli və gücləndirilməlidir, təbii ehtiyatlardan istifadə edən bütün sektorlar (enerji, tikinti, istehsal və s.) öz işlərində biomüxtəlifliyi nəzərə almalıdırlar.

Məsələn, 1970-ci illərdən bəri həyata keçirilən uğurlu təbiəti mühafizə səyləri ilə Çində pandaların sayı artdı. Aralıq dənizində dəniz tısbağası (Caretta) populyasiyalarının artması və son 20 ildə həyata keçirilən sistematik qoruma tədbirləri sayəsində təbiətlə harmoniyada daha da artması göstərir.





### Qarabağın biomüxtəlifliyi məhv edilib

Ermənistanın təxminən 30 il davam etmiş və regionun ekoloji vəziyyətinə ciddi ziyan vurmuş işğalçılıq siyasəti nəticəsində işğal olunmuş ərazilərdə həyata keçirilmiş qeyri-qanuni fəaliyyət və təbii ehtiyatların istismarı ekoloji problemlərə gətirib çıxarıb. Meşələrin qırılması və yandırılması, su ehtiyatlarının çirklənməsi, flora və faunanın məhv edilməsi, regionda yerin təkinin talan edilməsi nəticəsində ekoloji tarazlıq pozulub. Qarabağ müharibəsi zamanı ermənilərin Qarabağ ərazisində basdırdıqları çoxsaylı minalara insanlarla bərabər vəhşi təbiətin nadir növdən olan heyvanları da düşür.



İşğaldan azad olunmuş ərazilərdə biomüxtəliflik komponentlərinin tarixi areallarına qaytarılması davam etdiriləcək. Həssas ekosistemlərin bərpası, o cümlədən flora və fauna növlərinin qorunması üçün əsas fəaliyyətlərdən hesab olunan reintroduksiya layihələri davam etdirilir. İşğal dövründə bioloji müxtəliflik komponentlərinə ciddi ziyan dəymiş Qarabağ bölgəsində də bu layihələrin icrası planlaşdırılır. İşğaldan azad edilmiş ərazilərdə fauna növlərinin-ceyran, bezoar keçisi, dağıstan turu və nəcib maralın, o cümlədən balıq və yırtıcı quş növlərinin 2022-2023-cü illər ərzində öz tarixi areallarına reintroduksiyası nəzərdə tutulub.

Artıq balıq növlərinin populyasiyasının bərpası üçün işlər görülüb. Son iki ildə işğaldan azad edilmiş ərazilərdəki Bəsitçay, Həkəri və Bərgüşad çaylarının hövzələrinə qızılxallı forel balığının buraxılışı təşkil olunub və bu işlər növbəti dövrlərdə də həyata keçiriləcək. Ceyran fərdlərinin Cəbrayıl və Zəngilan rayonları ərazisinə, əvvəllər məskunlaşdıqları areallarına qaytarılması üçün hazırlıq işlərinə başlanılıb.

Hazırkı dövrədək ümumilikdə, 293 baş ceyran ölkənin təbii areallarına reintroduksiya edilib və aparılan son sayğı monitorinqlərinin nəticələrinə görə, Azərbaycanda 7000-dən artıq ceyran fərdinin yayılması qeydə alınıb. Xüsusilə zubrların Azərbaycanda tarixi məskunlaşma yerlərinə qaytarılması prosesi aparılır.

Qarabağ və Şərqi Zəngəzurda mina qurbanı olan heyvanlar içərisində nəsli kəsilməkdə olan Beynəlxalq Qırmızı Siyahıda olan növlər də var. Ermənistan Respublikası tərəfindən heyvanlara, vəhşi faunaya qarşı sərgilənən bu cür qəddar münasibət yolverilməzdir. Cənubi Qafqaz kimi biomüxtəliflik cəhətdən zəngin bir regionun nadir təbiət inciləri, heyvanları bu cür rəftara məruz qalmamalıdır. Azad edilmiş ərazilərdə ekoloji fəlakət ürək ağrıdır. 30 illik işğal dövründə ərazidə xeyli sayda meşələrin qırılması və ya yandırılması, torpaq və su hövzələrinin qanunsuz dağ-mədən sənayesi işləri nəticəsində kimyəvi cəhətdən çirkləndirilməsi heyvanlara qarşı da kütləvi qırğındır.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
29 dekabr
2023-cü il

# Cütlüklər arasında ciddi fərqlər var

***"Bu bir həqiqətdir ki, ailələrdə cütlüklər arasında ümumi intellektual səviyyə fərqi varsa, əlbəttə, ailə münasibətlərində problem olur". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlar Cəmiyyətinin sədri, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib.***



O, sözlərinə belə davam edib: ”İntellektual səviyyə deyəndə buraya insanların dünyagörüşü, mədəni səviyyəsi, təhsil səviyyəsini əlavə etmək olar. Yaxşı olar ki, qızlarımız təhsilli olsunlar. Elə oğlanlarımız da təhsilli olsunlar. Bütövlükdə cəmiyyət təhsilli olsun. Təhsilli cəmiyyətdə ümumi intellektual səviyyə yüksək olur. Ailə quran gənclər arasında da bu fərqlər aradan qalxır. Son illərdə, təəssüf ki, ailə institutunda xoşagələn proseslər davam etmir. Çox sayda ailələr qısa müddətdə dağılır. Belə ailələrdə böyüyən uşaqlar travma ilə böyüyürlər. Araşdırdıqda, görünür ki, cütlüklər arasında ciddi fərqlər var. O fərqlər bütün məqamların hamısını özündə birləşdirir”.

İlqar Orucov sözlərinə belə davam edib: ”Ailə bir institutdur. Elə ailələr var ki, uğurlu, fədakardır. Orada nə ər, nə də arvad ali təhsilli olub. Uğurlu ailə nümunələri olub ki, cütlüklərdən yalnız biri ali təhsillidir. Gerçəklik var, dünya dəyişir, yad təsirlər bilmədən cəmiyyətimizə daxil olur. Ona görə, biz milli dəyərlərimizi tərbiyə prosesində önə çəkməliyik, uşaqlarımıza, gənclərimizə aşılamalıyıq. Milli dəyərlərimizdə ailə böyük yer tutur. Bəzən müasirləşmək, yad qlobal elementlərin cəmiyyətimizə daxil olması, həm müsbət, həm də mənfi təsirlərlə yadda qalır. Təsirləri düzgün mənimsəmək üçün yad elementləri qəbul etməmək üçün ən yaxşı vasitə təhsildir. Ziyalı olaraq fikrim budur. Bununla bağlı Azərbaycanda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Komitə çox yaxşı işləyir, ciddi işlər görür. Əgər təhsilli cəmiyyət qura bilsək, insanlarımızın təhsil alması üçün imkanları genişləndirsək uğurlu ailələr qura bilərik”.

FAKTLAR

***Söylü Ağazadə***

# “Niva" İngiltərədə rekord qiymətə satıldı!



Rusiya istehsalı olan yolsuzluq avtomobili “Niva” Böyük Britaniyada rekord qiymətə satışa çıxarılıb. Bu barədə ”The Sun” nəşri yazıb. Məlumata görə, ”Lada Niva Luxe 2021” təxminən 22 min funt sterlinqə (47905 AZN) satılır. Elanda avtomobilin cəmi 583 kilometr yol qət etdiyi bildirilir.

Məqalə müəllifləri qeyd ediblər ki, Rusiya istehsalı olan avtomobillərin ölkəyə idxalının dayandırıldığını nəzərə alsaq, Britaniyada bu model çox nadirdir.

# “Real” Ançelottini buraxmır: yeni müqavilə imzalanacaq

“Real” baş məşqçi Karlo Ançelotti ilə müqaviləni 2024-cü ilin yanvarında uzada bilər. Bu barədə AS nəşri məlumat yayıb. Bildirilib ki, klub rəhbərliyi italiyalı mütəxəssisin işindən məmnundur. Madrid təmsilçisi yanvarın 10-da “Atletiko” ilə İspaniya Superkuboku oyununda əvvəl Ançelotti ilə müqaviləni uzatmaqla bağlı görüşməyi planlaşdırır.




# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Qohum evliliyindən yaranan psixoloji problemlər varmı?



***“Qohum evliliyi və ya qohumluq münasibətləri bioloji və psixoloji xəstəliklərin yaranmasına şərait yaradır. Tibb deyir ki, bunu etmək olmaz. Bəzən insanların həyata mental baxışı elmin təkliflərini qəbul etmir. Qohum evliliyi cəhalətdir. İnsest dediyimiz ailədaxili münasibətlər, pedofiliya və cinsi zorakılıq gələcəkdə travmaların və psixi pozuntuların yaranmasının təməlidir. İnsanın davranışları beyni ilə əlaqədar olduğu üçün bioloji və ya fizioloji xəstəliklər zamanı şəxsin psixoloji pozuntuları yaranmış olacaq”. Bu sözləri SİA-ya psixoloq Rövşən Nəcəfov deyib.***

Onun sözlərinə görə, şəxsiyyətlərarası münasibətlərin normal formalaşması üçün cəmiyyətdə sağlam münasibətlərin qurulması və cinsi münasibətlər haqqında maarifləndirici fəaliyyətlərə ehtiyac var: ”Keçmiş dövrlərdə insestin olmasına əsas səbəb mal və mülkün qorunması olub. İnsanlar etibarlılığı riskə almamaq üçün belə addımlar atıblar. Psixoloji yaddaşımızda bu hallar mövcuddur. Müasir dövrdə isə valideynlər övladlarının yad adamlarla deyil, “etibarlı həyat yoldaşları” ilə evlənməsini dəstəkləyirlər”.

Müsahibimiz bildirib ki, qohum evliliyinin müsbət tərəfi mədəni üstünlüyüdür: “Yəni ailə münasibətlərində harmoniyanı gücləndirə bilər. Bu da mentalitet və digər psixoloji diktələrdən yaranıb. Qohum evliliyinin təhlükələri və zərərləri onun faydalarından daha çoxdur. Qohum evlilikləri bioloji və ya fizioloji xəstəliklər yaratdığı kimi psixoloji sindromların da yaranmasına səbəb olur. Evlilik qərarı məcburiyyət və diktədən asılı olmamalıdır. İnsanlar, xüsusən gənclər arasında cinsi tərbiyə haqqında müntəzəm maarifləndirmə fəaliyyətləri aparılmalıdır. Gələcək nəslin istər fiziki, istərsə də psixi sağlam olması üçün elmi izahlar verilməlidir”.

***Ləman Sərraf***


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**